Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 73 (8096) ŞƏNBƏ, 6 aprel 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az













# İLHAM ƏLİYEV 103-cü qəsəbənin açılışını etdi

## Prezidentdən 810 məcburi köçkün ailəsinə 15 binadan ibarət yeni yaşayış kompleksi hədiyyəsi

**Bakının Kürdəxanı qəsəbəsində 810 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksi aprelin 5-də istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.**

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev görülən işlər barədə dövlət başçısına məlumat verdi.**



Bildirildi ki, Bakı şəhərinin ərazisindəki yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış 810 məcburi köçkün ailəsi üçün Prezidentin 2011-ci ildə imzaladığı sərəncama əsasən çoxmərtəbəli binalardan ibarət yeni yaşayış məhəlləsinin tikilməsi nəzərdə tutulub. Məhəllənin salınması üçün 15 hektar torpaq sahəsi ayrılıb. Yeni yaşayış məhəlləsinin layihələndirilməsi və tikintisi üzrə sifarişçi təşkilat funksiyaları Məcburi Köçkünlərin Sosial İnkişaf Fonduna həvalə edilib. 2018-ci ilin mart ayında başlanan tikinti işləri yüksək keyfiyyətlə sona çatdırılıb. Layihə üzrə doqquzmərtəbəli 15 bina tikilib ki, bunlardan 9-u 54, 4-ü 36, digərləri isə 108 və 72 mənzillidir. Yeni yaşayış kompleksində məktəb və uşaq bağçası, o cümlədən digər zəruri infrastruktur obyektləri - klub-icma mərkəzi, həkim məntəqəsi inşa edilib, istirahət parkı salınıb, uşaq meydançaları yaradılıb, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görülüb.

Kompleks salınarkən elektrik, su, qaz, istilik təchizatı və suvarma sistemlərinin, rabitə və televiziya şəbəkəsinin qurulmasına xüsusi diqqət göstərilib.

Qeyd olunub ki, bu, ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 103-cü müasir yaşayış kompleksidir.

Yeni kompleksdəki mənzillərdə yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, buradakı mənzillərdən 72-si birotaqlı, 360-ı ikiotaqlı, 306-sı üçotaqlı, 72-si isə dördotaqlıdır. Mənzillərin ümumi sahəsi 91 min kvadratmetrdir. Yeni yaşayış kompleksində hazırda paytaxtdakı yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri mənzillə təmin olunacaqlar.

Bu istiqamətdə atılan mühüm addımlardan danışarkən Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən tədbirləri də vurğulamaq lazımdır. Artıq Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yaşayış kompleksi inşa edilib. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edilib. Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələri köçürülüb. Sumqayıtdakı 1005 məcburi köçkün ailəsi üçün inşa olunmuş yaşayış binalarının da açılışı olub.

Sonra Prezident İlham Əliyev uşaq bağçasında yaradılan şəraitlə tanış oldu. Burada balacaların təlim-tərbiyəsi üçün bütün imkanlar var. 280 yerlik bağça uşaqların zövqünə uyğun qurulub, onların rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnməsini təmin edəcək. Otaqlar və dəhlizlər uşaqların sevimli nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilib. Bağçanın yerləşdiyi ərazidə geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıq zolağı salınıb.

Qeyd edək ki, 2007-ci ildə ölkədəki 12 çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses nəticəsində qaçqın və məcburi köçkünlər üçün indiyədək 3,5 milyon kvadratmetr yaşayış sahəsi olan müasir qəsəbələr və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb. İndiyədək 58 min 203 ailə və ya 300 min qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb ki, ondan da 54 min 203 ailə, yaxud 272 min nəfər son 15 ilin payına düşür. Təkcə 2018-ci ildə 5903 məcburi köçkün ailəsi yeni mənzillərə köçürülüb. Ümumilikdə bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli üçün indiyədək 7,1 milyard manat vəsait xərclənib. Açılan yeni iş yerləri nəticəsində məcburi köçkünlər arasında yoxsulluq həddi son 15 ildə 75 faizdən 12 faizədək azalıb.

Daha sonra Şuşa rayon 7 nömrəli tam orta məktəbdəki şəraitlə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, bu təhsil ocağı 560 şagird yerlikdir. Yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlıqları ilə diqqət çəkən bu təhsil ocağında təlim-tədris üçün hər cür şərait yaradılıb. Məktəbin kompüter otağında şagirdlər informasiya texnologiyalarının sirlərinə yiyələnəcəklər. İdman zalı da zəruri avadanlıqla təchiz edilib və burada şagirdlərin bədən tərbiyəsi ilə məşğul olmaları üçün hər cür imkan var.

Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu sahə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilib. Bu proses təkcə paytaxtla məhdudlaşmır, bölgələri də əhatə edir, doğma yurdlarından didərgin düşən soydaşlarımızın təhsilinin yüksək səviyyədə qurulmasına xidmət göstərir.

Sonra Prezident İlham Əliyev məcburi köçkünlərlə görüşdü.

Dövlət başçısı görüşdə çıxış etdi.

Bax: səh. 2

## Məhkəmə-hüquq sistemində dərin islahatlar başlanır

### Tapşırıq və tövsiyələr yerinə yetirildikdən sonra bu sahədə şəffaflıq tam təmin olunacaq

**Hər bir islahatın uğurlu nəticəsi ilk növbədə onun aktuallığından, əhatə dairəsindən, ən əsası vətəndaşların hüquq və azadlıqlarını özündə tam ehtiva etdirməsindən asılıdır.**

Prezident İlham Əliyevin ardıcıl və sistemli olaraq həyata keçirdiyi islahatların uğurlu nəticələri göz önündədir. Bu islahatlar həm də ölkədə qanunçuluğun, insan hüquq və azadlıqlarının etibarlı təminatına xidmət edir. Dövlət başçısının imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" fərman da bunu təsdiqləyən faktdır.

Sənəddə vurğulanır ki, ölkəmizin davamlı tərəqqisinin təmin olunması üçün bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasını və bu sahədə islahatların dərinləşdirilməsini zəruri edir.

Günün müzakirə mövzusuna çevrilən məsələ ilə bağlı Milli Məclisin deputatlarına müraciət etdik.

### Məhkəmə-hüquq sistemindəki islahatlar uğurlu nəticələr verəcək

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü, Vəhdət Partiyasının sədri Tahir Kərimli deyir ki, Prezident İlham Əliyev son illərdə əksər sahələrdə islahatlar həyata keçirməklə həmin sahələrə yeni nəfəs gətirir. Bu baxımdan məhkəmə-hüquq sistemində də islahatların aparılacağı gözlənilən idi.

Ardı 4-cü səh.

## NATO İlham Əliyevin təşəbbüsünü təqdir etdi

### Bakı-Tbilisi-Qars dəmir yolu Alyansın "Qətiyyətli Dəstək" missiyasının uğuruna böyük töhfə verir

**Bir neçə gün əvvəl Vaşinqtonda NATO xarici işlər nazirlərinin növbəti iclası keçirilib. Sıradan bir tədbir kimi görünsə də, NATO-nun yaranmasının 70-ci ildönümünə həsr olunan bu iclas Azərbaycanın dünya miqyasında yüksək nüfuz sahibi olmasının, qlobal proseslərdə fəal iştirak etməsinin bu mötəbər təşkilatın rəhbərliyi səviyyəsində etiraf edilməsi ilə yadda qaldı.**




### "Yens Stoltenberq: Azərbaycan Alyansın yaxın tərəfdaşıdır"

NATO-nun Baş katibi Yens Stoltenberq iclas çərçivəsində mətbuata verdiyi açıqlamada Azərbaycanın Alyansın yaxın tərəfdaşı olduğunu bildirərək, ölkəmizin beynəlxalq sülh və təhlükəsizliyin bərqərar olunmasında bu təşkilatla sıx əməkdaşlıq etdiyini vurğulayıb. Azərbaycanın NATO-nun Əfqanıstanda həyata keçirilən "Qətiyyətli Dəstək" missiyasına əhəmiyyətli hərbi qüvvə və multimodal tranzit töhfəsi verdiyini diqqətə çatdıran Y.Stoltenberq ələlxüsus Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyətindən söz açıb. Baş katib 2017-ci ildə fəaliyyətə başlamış Bakı-Tbilisi-Qars dəmir yolunun NATO üzv dövlətləri tərəfindən Əfqanıstana və geriyə daşımalar zamanı istifadə olunduğunu qeyd edərək, bu dəmir yolunun Alyansın "Qətiyyətli Dəstək" missiyasının uğuruna mühüm töhfə verdiyini vurğulayıb.

Azərbaycan mühüm nəqliyyat-kommunikasiya dəhlizlərinin yaradılması prosesinin əsas təşəbbüskarı və aparıcı iştirakçılarından biridir.

Ardı 4-cü səh.






İdman ölkəsinə çevrilən Azərbaycanda son illərdə onlarla dünya və Avropa miqyaslı yarış keçirilib. Beynəlxalq idman federasiyalarının qərarları ilə ölkəmizdə təşkil olunan hər bir turniri, idman müsabiqəsini layiqincə təşkil edən Azərbaycan hər dəfə tarixini möhtəşəm nailiyyətlə zənginləşdirib.

## "Bakı-2015"dən "Formula-1"dək...

### Paytaxtımız daha 5 il planetin sürət paytaxtı olacaq

Respublikamız təkcə yüksək evsahibliyi nümunəsi ortaya qoymayıb. Həm də sübut olunub ki, iradə, qətiyyət olan yerdə hər şey mümkündür.

"Formula-1" yarışlarında yüksək təşkilatçılıqla nümunə göstərən Azərbaycan daha 3 il, yəni 2023-cü ilədək dünyanın ən güclü pilotlarını qarşılayacaq. Bakı builki yarış da daxil olmaqla, daha 5 il planetin sürət paytaxtı olacaq.

### Yarışların Azərbaycan standartı

Ümumiyyətlə, son dörd ilə nəzər yetirdikdə görürük ki, ən böyük idman hadisələrindən biri, sözsüz ki, tarixdə ilk dəfə təşkil olunan Avropa Oyunlarının 2015-ci ildə Bakıda keçirilməsi idi. Ölkəmiz 2 ildən çox davam etdirilən yüksək səviyyəli hazırlıq işlərindən sonra Avropanın 50 ölkəsindən 6 mindən çox idmançının mübarizə apardığı bu idman yarışını layiqincə təşkil etməklə tək özünün deyil, "köhnə qitə"nin idman tarixinə də möhürünü vurdu. Çünki indiyədək yalnız Avropa ölkələrinin təmsil olunduğu bu cür möhtəşəm idman yarışması keçirilməmişdi.

Nümunəvi təşkilatçılığı, olduqca möhtəşəm açılış və bağlanış mərasimləri ilə yadda qalan I Avropa Oyunları keçirildiyi günlərdə (12-28 iyun) dünyanın əsas idman hadisəsinə çevrildi.

Ardı 7-ci səh.

# İLHAM ƏLİYEV 103-cü qəsəbənin açılışını etdi

## Prezidentdən 810 məcburi köçkün ailəsinə 15 binadan ibarət yeni yaşayış kompleksi hədiyyəsi

## Prezident İlham Əliyevin çıxışı

- Bu gün çox əlamətdar bir gündür. Sabunçu rayonunda məcburi köçkünlər üçün salınmış yeni qəsəbənin açılışını biz birlikdə qeyd edirik. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

Mən çox şadam ki, belə gözəl qəsəbə salınıb, burada 810 ailə yaşayacaq. Bütün şərait yaradılıb. Mənzillərlə tanış oldum, geniş, yaraşıqlı mənzillərdir. Böyük məktəb tikilib, uşaq bağçası, ictimai yerlər kifayət qədər genişdir. Yəni, burada yaşamaq üçün bütün imkanlar var. Tezliklə buraya bugünə qədər ağır vəziyyətdə yaşayan köçkünlər köçəcəklər. O köçkünlər ki, uzun illər ərzində yataqxanalarda, pansionatlarda, digər uyğunlaşdırılmış yerlərdə yaşamışlar. Onların həyatında yeni dövr başlayır. Burada yaradılan şərait ən yüksək standartlara cavab verir. Gözəl, yaraşıqlı binalar, geniş otaqlar, mənzillər. Bu, bizim siyasətimizi göstərir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Məcburi köçkünlərin problemlərinin həlli bizim üçün ən prioritet məsələdir. Bu siyasəti ulu öndər həyata keçirirdi. Bildiyiniz kimi, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk şəhərcik salınmışdı. O vaxt Dövlət Neft Fondundan ilk ödəmələr məhz bu məqsədlər üçün istifadə olunmuşdur. O vaxtdan bugünə qədər 100-dən çox köçkün qəsəbəsi, şəhərciyi salınıb və köçkünlərin böyük hissəsi bu qəsəbələrdə yaşayır. Biz Bakıda, Sumqayıtda, Abşeron rayonunda, digər şəhər və rayonlarımızda məcburi köçkünlər üçün gözəl şərait yaradırıq, bu proses davam etdiriləcək. Bildiyiniz kimi, sonuncu çadır şəhərciyi 2007-ci ildə ləğv edildi. O vaxta qədər köçkünlərimizin böyük əksəriyyəti çadırlarda yaşayırdı. Təkcə keçən il məcburi köçkünlər üçün 5 mindən çox mənzil inşa edilmişdir. Onlar bu mənzillərə köçürülürlər. Bu il isə bizim planlarımızda minimum 6 min mənzilin istifadəyə verilməsi nəzərdə tutulub. Artıq bu prosesə start verilib və əminəm ki, ilin sonuna qədər biz buna nail olacağıq. Təkcə iki il ərzində təqribən 11 min məcburi köçkün ailəsi yeni evlərə köçürüləcək. Doğrudan da, böyük işlərdir və orta hesabla bu mənzillərdə təqribən 50 minə yaxın insan yaşayacaq və öz məişət problemini həll edəcək. Bu məqsədlər üçün böyük vəsait ayrılır. Bildiyiniz kimi, Dövlət Neft Fondundan uzun illərdir ki, bu məqsədlər üçün vəsait ayrılır. Dövlət Neft Fondunun yaradılması da tarixi hadisə idi. Çünki bu fond vasitəsilə həm büdcəmizə dəstək göstərilir, həm sosial məsələlərin həlli təşkil edilir, ölkəmiz üçün strateji əhəmiyyətli layihələr icra edilir və ilk növbədə, məcburi köçkünlərin problemləri həll olunur. Əgər bizim bu imkanımız olmasaydı, əlbəttə ki, köçkünlərə bu həcmdə kömək etmək mümkün olmazdı. Məhz uğurlu neft strategiyamızın hesabına formalaşmış Dövlət Neft Fondu bu məqsədlər üçün böyük vəsait ayırıb və bundan sonda da ayıracaqdır. Bu, bizim siyasətimizdir. Biz bütün məcburi köçkünlərin problemlərini həll etməliyik və edəcəyik.



Onu da bildirməliyəm ki, salınan qəsəbələr arasında elələri var ki, vaxtilə işğal olunmuş və işğaldan azad edilmiş torpaqlarda salınıb. O cümlədən Horadiz şəhəri, demək olar ki, yenidən qurulub və bu gün ən gözəl yaşayış yerlərindən biridir. Şıxarx qəsəbəsində mindən çox köçkün ailəsi məskunlaşıb, hansı ki, o ərazilər işğal altında idi. Cocuq Mərcanlıda 150 evdən ibarət gözəl qəsəbə salınıb, müasir infrastruktur, iş yerləri, kommunikasiyalar yaradılıb. Yəni, bu yerlərə həyat qayıdıb.

Əlbəttə ki, bizim əsas məqsədimiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Bu istiqamətdə ardıcıl işlər aparılır. Bizim prinsipial mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Bu məsələ ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri, mötəbər beynəlxalq təşkilatların qərar və qətnamələri əsasında öz həllini tapmalıdır. Azərbaycan bu istiqamətdə bütün lazımi işləri görür. Həm tarixi ədalət bizim tərəfimizdədir, Dağlıq Qarabağ və digər işğal edilmiş torpaqlar bizim əzəli torpağımızdır, həm də beynəlxalq hüquq bizim mövqeyimizi dəstəkləyir. Əlbəttə ki, iqtisadi və hərbi potensial ölkəmizi daha da gücləndirir. Biz bundan sonra da bu məsələ ilə bağlı ardıcıl siyasət aparacağıq. Bir daha demək istəyirəm ki, bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər.

O ki qaldı məcburi köçkünlərin problemlərinin həllinə, bu problemlər kompleks şəkildə öz həllini tapır. Binalar tikilir, yeni şəhərciklər salınır, eyni zamanda, məcburi köçkünlərin sosial şəraiti yaxşılaşdırılır, onlara dövlət tərəfindən verilən sosial dəstək artır. Bu yaxınlarda çox böyük sosial paket təsdiqləndi. O cümlədən məcburi köçkünlərin müavinətləri 50 faiz artmışdır. Özü də biz bu məbləği bir neçə dəfə artırmışıq. Bu gün hər bir köçkünə verilən müavinət 50 faiz artıb. Bu, bizim köçkünlərə olan diqqətimizi əks etdirir. Digər sosial layihələr icra edilib. Bildiyiniz kimi, biz indi çox ciddi iqtisadi islahatlar aparırıq. Bu islahatlar bizim maliyyə imkanlarımızı genişləndirir. Biz bu əlavə vəsaiti, ilk növbədə, sosial məsələlərə yönəldirik. Beləliklə, keçən il prezident seçkilərində xalqın mənə verdiyi dəstək imkan verir ki, biz bütün vədləri icra edək. Seçkilər ərəfəsində bildirmişdim ki, biz yeni iqtisadi modelə keçid edəcəyik, bütün sosial məsələlərin həllinə çalışacağıq. Yəni, ciddi islahatların, iqtisadi və sosial sahədə islahatların anonsu prezident seçkiləri ərəfəsində verilmişdir. Seçkilərdən sonra ciddi islahatlara start verildi. Bu islahatlar çoxşaxəlidir. Siz və ictimaiyyət təbii ki, bu islahatları izləyirsiniz. Verdiyim qərarlar, imzaladığım sərəncamlar həyatımızın hər bir sahəsinə müsbət təsir göstərəcək. Ölkəmiz yeniləşir, müasirləşir. Biz yeni iqtisadi model üzərində işləyirik və elə etməliyik ki, ölkə iqtisadiyyatı bundan sonra da dayanıqlı şəkildə inkişaf etsin. Biz bütün dövrlərdə, hətta böhranlı illərdə də sosial məsələlərə böyük diqqət göstərmişik. 2015-2016-cı illərdə dünyada baş vermiş iqtisadi böhran bütün ölkələrə təsir etmişdir, o cümlədən bizə. Təsəvvür edin, bizim gəlirlərimiz 3-4 dəfə azaldı. Yəni, faizlərlə ölçülmürdü, dəfələrlə ölçülürdü. Bu, hər bir ölkə üçün böyük imtahandır, böyük sınaqdır. Əlbəttə ki, görülən operativ tədbirlər nəticəsində biz o böhranın fəsadlarını minimum səviyyəyə endirə bildik və ondan sonra ciddi addımlar ataraq iqtisadi sabitliyi qoruya bildik, inkişaf templərinə qədəm qoyduq. Keçən il artıq iqtisadi inkişaf başlamışdır, bu ilin iki ayının yekunları var. Bu yekunlar çox müsbətdir, iqtisadi artım kifayət qədər yüksəkdir, 3 faizə yaxındır. Qeyri-neft sektorunda sənaye istehsalı 15 faizdən çox artıbdır. Əhalinin gəlirləri artır, inflyasiya çox aşağı səviyyədədir, 2 faizdən aşağıdır, istehlak qiymətlərinə çox ciddi nəzarət edilir. Yəni, demək istəyirəm ki, iqtisadi və sosial islahatların yeni mərhələsinin startı prezident seçkilərindən sonra verilmişdir və bu gün biz bunun nəticəsini görürük. Mən deyə bilərəm ki, aparılan tədbirlər nəticəsində təkcə ilin birinci rübündə büdcə daxilolmaları 200 milyon manatdan çox artıb. Bu, nəyin hesabınadır - şəffaflığın, yeni yanaşmanın və islahatların. Bu, bizə imkan verir ki, bu vəsaiti vətəndaşların rifah halının yaxşılaşmasına yönəldək və bunu da etdik. Minimum əməkhaqqı, minimum pensiya təxminən 40 faiz, sosial müavinətlər orta hesabla 2 dəfə artıb. Şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə, məcburi köçkünlərə verilən müavinətlər, tələbələrin təqaüdləri - bütün bunlar bunun hesabına mümkün olmuşdur. Bizim iqtisadi vəziyyətimiz imkan verir ki, bu islahatları aparaq. İslahatlar bütün sahələri əhatə edir. Bir daha demək istəyirəm ki, biz inkişafın yeni mərhələsinə qədəm qoyduq.

Deyə bilərəm ki, bütün addımlar əhali tərəfindən yüksək qiymətləndirilir. Yerlərdən gələn məktublar və müraciətlər deməyə əsas verir ki, islahatlar xalq tərəfindən dəstəklənir, buna yüksək qiymət verilir və bu, bizə əlavə imkanlar yaradır. Biz ölkəmizi müasirləşdirməliyik, biz Azərbaycanı inkişaf etdirməliyik. Elə etməliyik ki, bütün problemlər öz həllini tapsın. İqtisadi, sosial sahələrdə, məhkəmə-hüquq, dövlət orqanları sahələrində bütün xoşagəlməz hallara son qoyulmalıdır. Azərbaycanda şəffaflıq tam təmin edilməlidir və biz buna nail olacağıq. Bu, bizə əlavə imkanlar verəcək. Büdcə daxilolmaları daha da artacaq, sosial məsələlərin həlli daha da sürətlə gedəcək.

Biz minimum əməkhaqqını və pensiyanı qaldıranda mən bildirmişdim ki, bu proses bundan sonra da aparılacaq. Çünki biz əsas infrastruktur layihələrini, demək olar ki, icra etmişik. Düzdür, hələ ki icra ediləsi layihələr var, o cümlədən regionların sosial-iqtisadi inkişafına dair IV Dövlət Proqramında kifayət qədər böyük tədbirlər nəzərdə tutulur. Ancaq biz, ilk növbədə, əsas diqqəti vətəndaşların sosial məsələlərinə yönəldəcəyik. Bunu etmək üçün, əlbəttə ki, imkanlar var. İmkanları da biz yaradırıq.

Azərbaycan iqtisadi və əlbəttə, siyasi cəhətdən tam müstəqil ölkədir. Heç kimdən asılı deyilik, maliyyə vəziyyətimiz sabitdir, gəlirlərimiz artır, icra etdiyimiz böyük layihələr, o cümlədən "Cənub qaz dəhlizi" layihəsi yaxın gələcəkdə bizə əlavə gəlirlər gətirəcəkdir. Bu gəlirlər ədalətli şəkildə bölüşdürüləcək, bir daha demək istəyirəm ki, ilk növbədə, vətəndaşların sosial rifahına yönələcəkdir. Beləliklə, bu gün açdığımız bu gözəl qəsəbə həm bizim siyasətimizi, məcburi köçkünlərə qayğımızı, həm də ölkəmizin artan imkanlarını göstərir. Bu gün Azərbaycanda hər sahədə çox böyük quruculuq işləri aparılır - iqtisadi sahədə, sosial sahədə. Xəstəxanalar, məktəblər tikilir, yeni sosial obyektlər istifadəyə verilir, yollar salınır, köçkünlər üçün belə gözəl şərait yaradılır. Quruculuq, abadlıq, inkişaf bu gün Azərbaycanı fərqləndirən amillərdir.

Mən sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm. Bütün məcburi köçkünlərə öz hörmətimi, ehtiramımı bildirmək istəyirəm. Hələ ağır vəziyyətdə yaşayan köçkünləri əmin etmək istəyirəm ki, onların da problemləri həll olunacaq. Onlar da növbə ilə öz yaşayış şəraitini yaxşılaşdıracaqlar. Bunu etmək üçün bizim iradəmiz var və biz bunu edəcəyik. Bir daha sizi ürəkdən təbrik edirəm.

❖ ❖ ❖







Şuşa şəhərindən məcburi köçkün **Günəş HÜSEYNOVA** çıxış edərək dedi:

- Cənab Prezident, Sizi salamlayıram. Bu gün yeni qəsəbənin açılışında iştirak etmək, Sizinlə bu görüşü yaşamaq bir məcburi köçkün olaraq mənim xatirəmdə uzun illər qalacaq.

Həyatımızın ağır, böhranlı illərində ulu öndər Azərbaycan xalqının imdadına yetdi. Onun müəyyənləşdirdiyi siyasət və strategiya bu gün, cənab Prezident, Sizin tərəfinizdən davam etdirilir. Mən bütün məcburi köçkünlərin adından Sizə təşəkkür edirəm. Söylədiyiniz fikirlər bizim hər birimizin qəlbində gözəl duyğular yaratdı. Mən çox böyük əminliklə qeyd etmək istəyirəm ki, bizim üçün yaratdığınız bu gözəl şəraitdə müvəqqəti yaşayacağıq. İnanıram ki, işğal altındakı bütün rayonlarımız çox tez bir zamanda bundan da gözəl olacaq, həyat üçün, yaşamaq üçün lazım olan hər cür şərait təmin ediləcək.

Mən bütün məcburi köçkün qadınlar adından xüsusilə Mehriban xanıma təşəkkür etmək istəyirəm. Onun son illərdəki layihələri, Azərbaycan mədəniyyətinə, incəsənətinə, təhsilinə, səhiyyəsinə olan qayğısı, doğrudan da, bizim hər birimizin ürəyindəndir. Mən xahiş edirəm, Azərbaycanın gözəl xanımına, birinci xanımına salamlarımızı çatdırasınız. O, bizə böyük dəstək göstərir.

Belə qəsəbələrə görə təşəkkür edirəm. Mən bilirəm, çox böyük bir əminliklə, fəxrlə, vüqarla deyirəm ki, üçrəngli bayrağımız mütləq Şuşamızda, doğma Qarabağımızda dalğalanacaq. Təşəkkür edirəm.

❖ ❖ ❖

Şuşa rayon 7 nömrəli tam orta məktəbin direktoru **Elçin DADAŞOV** çıxış edərək dedi:

- Hörmətli cənab Prezident, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı.

Bildirdiyiniz kimi, bu gün məcburi köçkünlər üçün yeni bir qəsəbənin açılışını etdiniz. Səkkiz yüzdən artıq məcburi köçkün ailəsinin həyat və yaşayış şəraiti burada tamamilə yaxşılaşacaq.

Bununla bərabər, mən Sizə bu möhtəşəm təhsil ocağının tikilməsinə görə öz minnətdarlığımı bildirirəm. Çox müasir tələblərə cavab verən təhsil ocağıdır. Bütün fənn kabinetləri, idman zalı ilə təchiz olunmuş möhtəşəm bir ümumtəhsil məktəbidir. Pedaqoji kollektivimiz Sizi əmin edir ki, burada təhsil alacaq bütün şagirdlərimizin Azərbaycan Respublikasının layiqli vətəndaşı, vətənpərvər övladları kimi yetişmələri üçün əllərindən gələni edəcək. Bununla bərabər, cənab Prezident, qeyd etdiyiniz kimi, məcburi köçkün ailələrinin həyat şəraitinin yaxşılaşdırılması siyasəti hələ ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə həyata keçirilmiş və Sizin tərəfinizdən çox uğurla davam etdirilir. Bu yaxınlarda məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılması üçün müavinətin 50 faiz artırılması bütün məcburi köçkünlərin çox böyük sevincinə səbəb olmuşdur. Buna görə də biz bütün məcburi köçkünlər adından Sizə öz dərin minnətdarlığımızı bildiririk.

Bununla bərabər, cənab Prezident, biz çox əminik ki, işğalda olan bütün torpaqlarımızı Sizin rəhbərliyinizlə yağı düşmən tapdağından azad edəcəyik və Lələtəpədə dalğalanan üçrəngli bayrağımızı işğaldan azad edilmiş bütün torpaqlarımızda dalğalandıracağıq. Əminik ki, həmin o hadisələrdə biz bütün məcburi köçkünlər Sizin yanınızda olacağıq. Biz məcburi köçkünlər üçün gördüyünüz bütün işlərə görə Sizə dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Çox sağ olun, cənab Prezident.

❖ ❖ ❖

Şuşa Rayon İcra Hakimiyyəti başçısının müavini **Vüsalə FƏTƏLİYEVA** çıxış edərək dedi:

- Cənab Prezident, bu gözəl qəsəbə Sizin böyük diqqət və qayğınızın bəhrəsidir. Bu qayğı və diqqət üçün məcburi köçkünlər adından Sizə dərin hörmətimizi və təşəkkürümüzü bildiririk.

Bu günlərdə Azərbaycanın tarixində böyük qələbə olan Aprel döyüşlərinin - Lələtəpənin, Talış yüksəkliklərinin azad olunmasının, Cocuq Mərcanlıya qayıdışın ildönümü ilə bağlı zəfər bayramını coşqu ilə qeyd etdik. Bu qələbə üçün də Sizə təşəkkür edirik. Çünki bu qələbə bütün dünyaya bir daha Azərbaycan Ordusunun, Azərbaycan dövlətinin qüdrətini göstərdi. Bu qələbə, bu bayramlar bütün dünyaya bir mesaj oldu. Sizin böyük diplomatik siyasətiniz, qətiyyətiniz, birmənalı şəkildə "Biz torpaqlarımızı heç kəsə bağışlamayacağıq", - deyən vurğulu hökmlü nitqiniz bir daha göstərdi ki, doğrudan da, o ərazilərdən Qarabağa gedən böyük bir yol var və bu yolu qısa zamanda qət etmək mümkündür. Bu yaxınlarda Avstriyada qətiyyətli hökmünüzlə "Biz torpaqlarımızın sahibiyik, varisiyik" deməyiniz hər bir məcburi köçkünün qəlbində böyük bir ümid yaratdı ki, doğrudan da, qələbə bizimlə olacaqdır.

Ona görə də Sizin qətiyyətinizi, Sizin bütünlüklə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı strategiyanızı, yolunuzu, istiqamətinizi hər zaman dəstəkləyirik, hər zaman yanınızdayıq. Əminəm ki, hər bir Azərbaycan oğlu, Azərbaycanın hər bir qeyrətli vətəndaşı Sizin əmrinizə müntəzirdir, torpaqlarımızı yağı düşməndən azad etməyə hər zaman hazırdır. Bu inamla deyirəm ki, tez bir zamanda doğma torpaqlarımızda ocaqlarımızı yandıracağıq. Bu, ən böyük qələbəmiz olacaq.

Müvəqqəti yaşayışımız üçün bizə yaratdığınız belə gözəl şəraitə görə Sizə dərin minnətdarlığımızı bildirir, ailənizin hər bir üzvünə cansağlığı, xoşbəxtlik arzulayırıq. Sizin hazırda əsgər olan oğlunuza da cansağlığı arzulayırıq. Sizin məcburi köçkünlər üçün yaratdığınız məktəblərdə məhz əsl vətəndaş, vətənpərvər oğullar böyütmək hər birimizin məsuliyyətidir. Biz öz məsuliyyətimizi dərk edərək Sizə söz veririk ki, hər bir məcburi köçkün hər zaman Sizin yanınızdadır.

Azərbaycan mədəniyyətini, o cümlədən Qarabağ mədəniyyətini dünyada bir silah kimi işlədən Mehriban xanımın gördüyü işlər əzəmətlidir, çox qiymətlidir. Bu gün bizim muğamımız, bizim incəsənətimiz, vaxtilə bizim şuşalı Sadıqcanın sinəsində çağlayan tarımız UNESCO-nun Qeyri-maddi Mədəni İrs Siyahısında milli sərvətimiz kimi tanınır. Bütün bunlar üçün minnətdarıq ki, Mehriban xanım ən böyük silah kimi məhz mədəniyyətdən başladı. Mədəniyyət Azərbaycan xalqının böyük siyasətidir. Biz Mehriban xanımın idmana, təhsilə, mədəniyyətə, insanların sosial həyatına diqqət və qayğısını yüksək qiymətləndiririk. Bir neçə gün bundan əvvəl yüksək texnologiyalı protezlərlə təmin olunmuş hərbçilərlə görüşdə onları doğma övladları kimi bağrına basması hər kəsin qəlbində Mehriban xanıma hörmət və ehtiram duyğularını qat-qat artırdı.

Siz bizim Prezidentimiz olmaqla bərabər, həm də xalqımızın çox istəkli, qəlbən inandığı şəxsiyyətsiniz. Allah Sizə ömür versin, Sizə cansağlığı arzulayırıq, təşəkkür edirik. Bizim salamlarımızı, məhəbbətimizi Mehriban xanıma çatdırmağınızı xahiş edirik.

Ardı 3-cü səh.

# İLHAM ƏLİYEV 103-cü qəsəbənin açılışını etdi

## Prezidentdən 810 məcburi köçkün ailəsinə 15 binadan ibarət yeni yaşayış kompleksi hədiyyəsi





*Əvvəli 2-ci səh.*

Sonra Azərbaycan Prezidenti **İlham ƏLİYEV** çıxış edərək dedi:

- Çox sağ olun, təşəkkür edirəm. Xoş sözlərə görə sizə minnətdaram. Bizim görüşümüz Aprel döyüşlərinin ildönümünə təsadüf edir. Aprel döyüşləri bizim şanlı tariximizdir, parlaq zəfərimizdir. Azərbaycan əsgəri, Azərbaycan dövləti göstərdi ki, heç vaxt işğalla barışmayacaq.

Biz məsələni diplomatik yollarla, siyasi yollarla həll etmək istəyirik. Ancaq, eyni zamanda, biz hərbi gücə də malikik. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Aprel döyüşləri onu göstərdi ki, biz öz ərazi bütövlüyümüzü istənilən yolla bərpa edə bilərik. Onu göstərdi ki, Azərbaycan Ordusu böyük gücə malikdir. Onu göstərdi ki, bu, bizim torpağımızdır. Cocuq Mərcanlıya uzun fasilədən sonra qayıdan vətəndaşlar, o cümlədən yeniyetmələr, uşaqlar, - o insanlar ki, heç vaxt orada olmayıblar, onlar qayıdıblar oraya, - onu göstərir ki, hər bir köçkün torpaqlar işğaldan azad olunandan sonra öz doğma torpağına qayıdacaqdır.

Siz qeyd etdiniz, mən tam razıyam ki, bu, müvəqqəti yaşayış yeridir. Torpaqlar işğaldan azad olunandan sonra biz bütün şəhərləri yenidən quracağıq, biz bu şəhərlərə yeni həyat verəcəyik. O şəhərlər ki, indi yerlə yeksan edilib. Orada, işğal edilmiş torpaqlarda demək olar ki, bütün binalar dağıdılıb. Beynəlxalq təşkilatlar, ATƏT-in faktaraşdırıcı missiyası bu haqda məruzə də hazırlayıb. Biz necə ki, Cocuq Mərcanlını bərpa etdik, necə ki, qısa müddət ərzində vaxtilə işğal altında olan başqa torpaqlardakı binaları, evləri, şəhərləri, kəndləri bərpa etdik, işğalda olan bütün torpaqlardakı şəhərləri, kəndləri bərpa edəcəyik. Bizdə belə iradə və güc var.

Eyni zamanda, siz də qeyd etdiyiniz kimi, biz bütün dünyaya göstərməliyik, haqlı olaraq, göstəririk, sübut edirik ki, Qarabağ bizim tarixi torpağımızdır. Mehriban xanımın bu sahədəki fəaliyyətini siz yüksək qiymətləndirirsiniz. Mən də yüksək qiymətləndirirəm. Çünki onun fəaliyyəti nəticəsində dünyanın aparıcı beynəlxalq təşkilatlarında bu məsələ ilə bağlı təqdimatlar, simpoziumlar, konfranslar, "dəyirmi masa"lar keçirilmişdir. Bizim tarixi, mədəni irsimiz olan muğam sənəti, tar və digər milli sərvətlərimiz UNESCO-nun Qeyri-maddi Mədəni İrs Siyahısına salınmışdır. Bütün bunlarla bağlı sərgilər, təqdimatlar keçirilir, yəni, biz Qarabağ həqiqətlərini dünyaya çatdırırıq. Çünki vaxtilə, xüsusilə müstəqilliyimizin ilk illərində erməni lobbisi tərəfindən belə bir rəy formalaşdırılmağa cəhd edilirdi ki, guya Qarabağ onların torpağıdır. Bizim imkanımız yox idi, lobbimiz yox idi, bizim xaricə çıxışımız çox məhdud idi. Amma bu gün biz bütün dünyaya həqiqətləri çatdırırıq və tarixi sənədlər əsasında, maddi-mədəni irs əsasında sübut edirik ki, bu, bizim tarixi diyarımızdır. Mən bildirəndə ki, tarixi ədalət bizim tərəfimizdədir, məhz bunu nəzərdə tuturdum. Qədim xəritələrə baxanda görürük ki, Dağlıq Qarabağda və ətraf bölgələrdə bütün toponimlər Azərbaycan mənşəlidir. Tarixi ədalət, beynəlxalq hüquq, bütün beynəlxalq təşkilatlar Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bu da bizim böyük diplomatik və siyasi uğurumuzdur. Əlbəttə ki, iqtisadi potensialımız, hərbi gücümüz də mühüm amildir.

Biz çalışırıq ki, məsələ sülh yolu ilə həll olunsun. Ancaq, eyni zamanda, biz öz ordu potensialımızı, hərbi gücümüzü artırırıq və bundan sonra da bu istiqamətdə bütün lazımi tədbirlər görüləcəkdir. Bir daha sizi təbrik edirəm, sizə uğurlar, cansağlığı arzulayıram. Sağ olun.

❖ ❖ ❖

Sonda xatirə şəkli çəkdirildi.

❖ ❖ ❖

Qeyd edək ki, Prezident İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlər bu kateqoriyadan olan soydaşlarımızın hər zaman diqqət və qayğı ilə əhatə olunduğunu göstərir. Qaçqın və məcburi köçkünlərin müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqətin təzahürüdür. Qaçqın və məcburi köçkünlərin maddi rifahının yaxşılaşdırılması üçün dövlət proqramları qəbul edilib, sosial müavinətlərin artırılması istiqamətində mühüm tədbirlər görülüb. Bu işlərin davamı olaraq Prezident İlham Əliyev bu il fevralın 26-da "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin artırılması haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, vahid aylıq müavinətin məbləği 2019-cu il aprelin 1-dən 50 faiz artırılıb.

## "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 603; 2006, № 6, maddə 482; 2007, № 8, maddə 745; 2008, № 3, maddə 154; 2009, № 12, maddə 948; 2011, № 11, maddə 983; 2012, № 6, maddə 509, № 7, maddə 668, № 11, maddə 1053; 2013, № 6, maddələr 607, 623, № 7, maddə 791, № 12, maddə 1484; 2014, № 1, maddə 7, № 2, maddə 97, № 6, maddələr 597, 604; 2015, № 3, maddə 255; 2016, № 4, maddə 645, № 6, maddə 990, № 7, maddə 1244, № 11, maddələr 1770, 1775; 2017, № 5, maddə 738, № 6, maddə 1037, № 10, maddə 1772, № 11, maddə 1954, № 12, I kitab, maddə 2235; 2018, № 2, maddə 167, № 3, maddə 382, № 5, maddə 852; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1408-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.1-2-ci maddənin ikinci cümləsində "Hüquq sahibinin istəyi ilə "Elektron hökumət" portalında yerləşdirilmiş" sözləri "Elektron qaydada tərtib olunmuş" sözləri ilə əvəz edilsin.

1.2. 6.1.1.1-ci maddədə "verilməsi" sözü "təqdim olunması" sözləri ilə əvəz edilsin.

1.3. 6.1.4-cü maddədə "daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə çıxarışın dublikatının verilməsi," sözləri çıxarılsın.

1.4. 6.2-ci maddənin birinci cümləsində birinci halda "verilməsi" sözü "təqdim olunması" sözləri ilə əvəz edilsin, ikinci halda "çıxarışın" sözündən sonra "təqdim olunması" sözləri əlavə edilsin.

1.5. 9.2-ci maddənin birinci cümləsində ikinci halda "dövlət" sözündən əvvəl "elektron qaydada" sözləri əlavə edilsin.

1.6. 9.5-ci maddədə "verilməsi" sözü "elektron üsulla təqdim olunması" sözləri ilə əvəz edilsin.

1.7. 12.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"12.1. Daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının əmələ gəlməsi və başqasına keçməsi müvafiq icra hakimiyyəti orqanları tərəfindən hazırlanan sənədlər əsasında qeydiyyat orqanı tərəfindən elektron üsulla təqdim olunan dövlət reyestrindən çıxarışla rəsmiləşdirilir. Çıxarışda daşınmaz əmlakın reyestr nömrəsi göstərilməlidir. Çıxarış qeydiyyat orqanının vəzifəli şəxslərinin müvafiq elektron imzası ilə təsdiqlənməklə "Elektron hökumət" portalında yerləşdirilir və hüquq sahibinin elektron üsulla real vaxt rejimində əldə etməsi imkanı təmin olunur. Hüquq sahibinin istəyindən asılı olaraq çıxarış elektron üsulla (o cümlədən elektron poçt ünvanı vasitəsilə) hüquq sahibinə göndərilir.".

1.8. 12.2-ci maddədə "reyestrindən" sözündən sonra "elektron" sözü əlavə edilsin və "forması və tərtibi qaydası" sözləri "məzmunu" sözü ilə əvəz edilsin.

1.9. 13-cü maddə üzrə:

1.9.1. 13.3.2-ci maddədə "verilmiş" sözü "təqdim olunmuş" sözləri ilə əvəz edilsin;

1.9.2. 13.11-ci maddənin birinci və ikinci cümlələrində "daşıyıcılarında" və "daşıyıcısındakı" sözləri "formada" sözü ilə əvəz edilsin;

1.9.3. aşağıdakı məzmunda 13.11-1-ci və 13.11-2-ci maddələr əlavə edilsin:

"13.11-1. Dövlət reyestri elektron formada "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edilməklə aparılır. Kağız daşıyıcıda olan sənəd formasında təqdim olunmuş ərizələr və hüquqların dövlət qeydiyyatı üçün digər sənədlər elektron formada aparılan dövlət reyestrinə daxil edilməsi üçün qeydiyyat orqanı tərəfindən elektron təsvir formasına keçirilir.

13.11-2. Elektron formada aparılan dövlət reyestrində aşağıdakılar təmin olunmalıdır:

13.11-2.1. məlumatların işlənməsinin lazımi qaydasının gözlənməsi, xüsusilə məlumatların itirilməsinin qarşısının alınması, məlumatların qanunsuz əldə edilməsinin istisna edilməsi üçün etibarlı müdafiə sisteminin yaradılması üzrə tədbirlər görülməsi;

13.11-2.2. məlumatların məlumat bazasına operativ daxil edilməsi, orada dəyişilməz və aydın şəkildə oxunaqlı vəziyyətdə saxlanılması;

13.11-2.3. məlumatların daxil edilməsinin, dəyişdirilməsinin və silinməsinin sübut olunması mümkünlüyünün təmin edilməsi;

13.11-2.4. hüquq sahibinə daşınmaz əmlakla bağlı məlumatları dövlət reyestrindən elektron informasiya sistemləri vasitəsilə əldə etmək imkanının yaradılması.".

**Maddə 2.** Bu qanun qüvvəyə minənədək kağız formada verilmiş çıxarış elektron çıxarışa bərabər tutulur. Kağız formada verilmiş çıxarış itirildikdə, məhv olduqda və ya yararsız hala düşdükdə hüquq sahibinə dublikatın əvəzində elektron formada çıxarış təqdim edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 mart 2019-cu il*

## "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1545-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1545-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 12.2-ci maddəsində nəzərdə tutulan elektron çıxarışın məzmunu barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi:

2.1. daşınmaz əmlakın dövlət reyestrindən çıxarışların elektron qaydada tərtib olunmasının üstünlükləri və onun xüsusiyyətləri barədə ictimai maarifləndirmə tədbirlərinin həyata keçirilməsini təmin etsin;

2.2. daşınmaz əmlak üzərində hüquqların daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınması barədə hüquq sahibinə elektron informasiya sistemləri vasitəsilə məlumat verilməsini təmin etsin;

2.3. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə "Elektron hökumət" portalında yerləşdirilən daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı hüquq sahibinin həmin portal vasitəsilə real vaxt rejimində əldə etməsi imkanını 15 gün müddətində təmin edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 aprel 2019-cu il*

## Göyçay rayonunun Kürd-Şəhadət-Qarabağlar-İkinci Ərəbcəbirli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Dörd min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Kürd-Şəhadət-Qarabağlar-İkinci Ərəbcəbirli avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 4,1 milyon (dörd milyon bir yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 aprel 2019-cu il*

## Bakı şəhərində iki yeni "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"ASAN xidmət" mərkəzlərində vətəndaşlara operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında müasir tələblərə cavab verən xidmətlər göstərilməsi sayəsində yüksək vətəndaş məmnunluğuna nail olunmuşdur. Ölkə əhalisinin dövlət xidmətlərini və özəl xidmətləri vahid məkanda əldə etməsinin daha da genişləndirilməsi və xidmət şəbəkəsinin bütün respublika ərazisini əhatə etməsi məqsədilə bu günədək paytaxtda, eləcə də digər şəhər və rayonlarda on beş "ASAN xidmət" mərkəzi yaradılmış, 2019-cu ilin sonunadək daha beş mərkəzin istifadəyə verilməsi nəzərdə tutulmuşdur. Gündəlik müraciət sayı 30 minə yaxın olan "ASAN xidmət" mərkəzlərində indiyədək 28 milyondan çox müraciət qəbul edilmişdir.

Bu sahədə işlərin davam etdirilməsinin əhəmiyyətini, habelə Bakı şəhərində əhalinin sıxlığı və müvafiq dövlət xidmətlərinin yalnız "ASAN xidmət" mərkəzlərində həyata keçirilməsi nəticəsində müraciətlərin sayının artması ilə bağlı yeni "ASAN xidmət" mərkəzləri yaradılmasının zəruriliyini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərində iki yeni "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ilkin olaraq 6,0 (altı) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 aprel 2019-cu il*

## N.N.Novruzovun Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Novruz Nəcəf oğlu Novruzov Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 aprel 2019-cu il*

## A.H.Hüseynovun Şabran Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Asif Həbib oğlu Hüseynov Şabran Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 aprel 2019-cu il*

## M.B.Quliyevin Goranboy Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Məhərrəm Böyükağa oğlu Quliyev Goranboy Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 aprel 2019-cu il*

## N.M.Quliyevin Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Nizaməddin Məhəmməd oğlu Quliyev Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 aprel 2019-cu il*

## N.M.Quliyevin Goranboy Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Nizaməddin Məhəmməd oğlu Quliyev Goranboy Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 aprel 2019-cu il*

## A.H.Hüseynovun Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Asif Həbib oğlu Hüseynov Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 aprel 2019-cu il*

## M.B.Quliyevin Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Məhərrəm Böyükağa oğlu Quliyev Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 aprel 2019-cu il*

## N.N.Novruzovun Şabran Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Novruz Nəcəf oğlu Novruzov Şabran Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 aprel 2019-cu il*

# Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib

Aprelin 5-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, komitə sədri Ziyad Səmədzadə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən son vaxtlar imzalanmış sərəncamların, qəbul olunmuş qərarların ölkədə iqtisadi fəaliyyətin daha da canlanmasına və əhalinin sosial vəziyyətinin daha da yaxşılaşmasına xidmət etdiyini deyib. O, həmçinin Milli Məclisin son vaxtlar qəbul etdiyi qanunların iqtisadi inkişafın daha da davamlı olmasına, iqtisadi islahatların daha da dərinləşməsinə yönəldildiyini söyləyib. Artıq birinci rübün yekunları da göstərir ki, Azərbaycanın iqtisadi həyatında müsbət meyillər güclənir, əhalinin həssas təbəqələrinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər öz bəhrəsini verir.

"Hesablama Palatası Azərbaycan Respublikasında müstəqillik illərində yaranan çox vacib qurumdur. Onun fəaliyyəti "Hesablama Palatası haqqında" qanunla tənzimlənir. Hesablama Palatasının son illərdəki fəaliyyəti göstərir ki, ölkəmizdə maliyyə şəffaflığının artırılması, ölkə iqtisadiyyatına yönəldilən maliyyə resurslarının daha səmərəli istifadə olunması istiqamətində görülən tədbirlər öz bəhrəsini verir. Eyni zamanda, Hesablama Palatasının fəaliyyət dairəsi də genişlənir", - deyə komitə sədri qeyd edib.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Azərbaycan Respublikası Hesablama Palatasının 2018-ci ildə fəaliyyəti haqqında hesabatı təqdim edib. Bildirib ki, Azərbaycan Respublikası Hesablama Palatasının 2018-ci ildə fəaliyyəti haqqında hesabat "Hesablama Palatası haqqında" Qanunun 7.0.11-ci və 14.0.12-ci maddələrinə əsasən hazırlanıb.

Qeyd edilib ki, 2018-ci ildə Hesablama Palatasının kollegiyası tərəfindən 60 kənar dövlət maliyyə nəzarəti tədbirinin başlanılması və 58 nəzarət tədbirinin nəticələri ilə bağlı qərar qəbul olunub.

2018-ci ildə Hesablama Palatasının həyata keçirdiyi kənar dövlət maliyyə nəzarətinin əhatə dairəsinə daxil olan istiqamətlərin sayı "Hesablama Palatası haqqında" yeni qanunun qəbul edilməsi ilə əlaqədar bir qədər genişlənib. Belə ki, hesabat dövründə nəzarət fəaliyyəti dövlət büdcəsini büdcədənkənar dövlət fondlarının cəlb edilmiş daxili və xarici kreditləri, həmçinin dövlət mülkiyyətində olan müəssisələrin vəsaitlərini əhatə edib. Hesabat ilində audit formasında aparılmış nəzarət tədbirləri ümumilikdə 9,3 milyard manat vəsaiti əhatə edib. Bunun da 66,5 faizini dövlət büdcəsinin xərcləri, 1,3 faizini büdcədənkənar dövlət fondlarının vəsaitləri, 8,3 faizini beynəlxalq və yerli maliyyə təşkilatlarından cəlb edilmiş kreditlər, 23,9 faizini isə dövlət müəssisələrinin vəsaitləri təşkil edir. Hesablama Palatasının apardığı auditlər dövlət büdcə xərclərinin funksional təsnifatının 14 bölməsinin 13-nü əhatə edib.

Bildirilib ki, əvvəlki illərdən fərqli olaraq 2018-ci ildə aparılan auditlərin əhatə dairəsinin daha çox hissəsi dövlət büdcəsinin funksional təsnifatının ümumi dövlət xidmətləri bölməsinin payına düşüb. Hesabat ilində dövlət büdcə xərcləri üzrə əhatə edilmiş 6,2 milyard manatın 6 milyardını, yaxud 95,6 faizini mərkəzləşdirilmiş xərclər, 4,4 faizini və yaxud 273,3 milyon manatını isə yerli xərclər təşkil edir. Hesabat ilində auditlərin 38-i Bakı şəhərində, 13-ü respublikanın ayrı-ayrı şəhər və rayonlarında, 2-si isə xarici ölkələrdə yerləşən səfirliklərdə aparılıb.

Dövlət büdcəsinin gəlir sahəsində aparılan auditlər barədə məlumat verən Hesablama Palatasının sədri qeyd edib ki, auditlər əsasən iki əsas istiqamət üzrə aparılıb. İstiqamətlərdən biri dövlət büdcəsinin gəlirlərinin, o cümlədən vergi gəlirlərinin yığılmasını təmin edən dövlət qurumlarında inzibatçılıq vəziyyətinin qiymətləndirilməsi, digəri isə dövlət idarə, müəssisə və təşkilatlarda vergi və digər icbari ödənişlərin hesablanması və ödənilməsidir. Dövlət büdcəsinin xərci ilə bağlı aparılan audit tədbirlərinə isə əvvəlki illərdə olduğu kimi nöqsanlara sistemli yanaşma tətbiq olunub. Nöqsanların ayrı-ayrı obyektlər üzrə olmaqla icmal şəklində təqdim olunması, başqa sözlə desək, istiqamətlər üzrə cəmlənməsi dövlət vəsaitlərinin istifadəsində və dövlət maliyyə inzibatçılığının cari vəziyyəti ilə bağlı ümumi mənzərəni təsbit edir.

Onun sözlərinə görə, ötən il 714 halda nöqsan aşkar edilib, bunlar büdcə qanunvericiliyinin pozulması, dövlət satınalmaları üzrə yol verilən nöqsanlardır. Həyata keçirilən tədbirlər nəticəsində 23176 min manat məbləğində vəsait büdcəyə bərpa edilib.

Qeyd olunub ki, qurumun uzunmüddətli dövr üçün fəaliyyət istiqamətlərini müəyyən edən "Hesablama Palatasının 2018-2020-ci illər üzrə Strateji İnkişaf Planı"na uyğun hesabat ilində mühüm işlər görülüb.

Daha sonra Azərbaycan Standartlaşdırma İnstitutunun baş direktoru Namiq Tağıyev "Standartlaşdırma haqqında" 5 fəsil 26 maddədən ibarət qanun layihəsi barədə ikinci oxunuşda məlumat verib. Bildirilib ki, "Standartlaşdırma haqqında" qanun layihəsi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 24-cü bəndinə uyğun olaraq, standartlaşdırmanın məqsəd və prinsiplərinin, standartlaşdırma sahəsində normativ sənədlərin hazırlanması, qəbul edilməsi və tətbiqi prosesinin, standartlaşdırma fəaliyyətlərinin maliyyələşdirilmə mənbələrinin, standartlaşdırma sahəsində beynəlxalq əməkdaşlıq məsələlərinin və standartlaşdırma subyektlərinin bu sahədə fəaliyyətinin hüquqi əsaslarını müəyyən edir. Məlumat dinlənildikdən sonra deputatlar qanun layihəsinə dair qeydlərini bildiriblər.

İclasda "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının rabitə operatorları tərəfindən Azərbaycan-Qazaxıstan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsində müştərək fəaliyyətin təşkili haqqında" sazişin təsdiq edilməsi barədə qanun layihəsinə də baxılıb.

Təqdim edilən qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# NATO İlham Əliyevin təşəbbüsünü təqdir etdi

## Bakı-Tbilisi-Qars dəmir yolu Alyansın "Qətiyyətli Dəstək" missiyasının uğuruna böyük töhfə verir

*Əvvəli 1-ci səh.*

Bu baxımdan respublikamız özünü təkcə neft və qaz hasil edərək ixrac edən ölkə kimi deyil, həm də Şərqi Qərblə, Şimalı Cənubla birləşdirən nəqliyyat qovşağı və logistika mərkəzi kimi təqdim edir. Ölkəmizin nəqliyyat infrastrukturunda həyata keçirilən yenidənqurma işləri - Bakıda və respublikamızın regionlarında beynəlxalq hava limanlarının, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri istiqamətində beynəlxalq əhəmiyyətli avtomobil yollarının tikintisi və dəmir yolu xətlərinin yenilənməsi bu sahənin inkişafına təkan verib, Asiya ilə Avropanın qovuşuğunda yerləşən Azərbaycanın nəqliyyat dəhlizi kimi önəmini daha da artırıb. Bu həm də onu göstərir ki, Prezident İlham Əliyevin yürütdüyü siyasət regionda və daha böyük coğrafiyada iqtisadi-ticarət əlaqələrinin inkişaf etdirilməsinə və bütün tərəfdaş ölkələrin bu inkişafdan faydalanmasına yönəlib.

### Qərb BTQ dəmir yolunun mühüm əhəmiyyətini başa düşür

Müəllifi İlham Əliyev olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisinin başa çatması isə Azərbaycanın tranzit imkanlarını daha da artırdı. BTQ iqtisadi və siyasi əhəmiyyətinə görə dünyanın ən mühüm nəqliyyat infrastrukturları ilə bir sırada dayanır. Çünki bu dəmir yolu xəttinin istismara verilməsi ilk növbədə Tarixi İpək yolunun bərpası istiqamətində indiyədək atılan ən mühüm addımdır. Çünki BTQ dəmir yolu xətti ilə Çindən Avropaya və əksinə yükdaşımaları zamanı vaxt itkisinin və eyni zamanda əlavə maliyyə sərfinin qarşısı xeyli alınır. Düzdür, ilk vaxtlarda ABŞ və digər Qərb dövlətləri bu layihəyə isti yanaşmadılar. Ona görə layihəni əvvəldən axıra kimi Azərbaycan öz daxili imkanları ilə maliyyələşdirdi. Lakin bu gün Qərb dünyası BTQ dəmir yolunun nə qədər tarixi və iqtisadi əhəmiyyət kəsb etdiyini anlayır. Ona görə də hazırda BTQ Avropa İttifaqı, ABŞ və Mərkəzi Asiya dövlətləri tərəfindən dəstəklənir.

2017-ci ilin 30 oktyabr tarixində açılışı baş tutmuş bu dəmir yolu Əfqanıstana multimodal daşımalar üçün geniş imkanlar yaradıb. Belə ki, BTQ Əfqanıstan marşrutu üzrə Lapis-Lazuli nəqliyyat dəhlizinin əsas hissəsini təşkil etməklə NATO dövlətlərinin bu ölkəyə fasiləsiz və təhlükəsiz şəkildə daşımalar həyata keçirməsinə mühüm töhfə verir. Ələt beynəlxalq dəniz limanı bu sahədə imkanları əlavə olaraq genişləndirir. Beləliklə, uzunmüddətli perspektivdə Azərbaycan ərazisindən tranzit NATO-nun Əfqanıstandakı missiyasının təchizatı, habelə Əfqanıstanın davamlı inkişafı kontekstində mühüm əhəmiyyət kəsb edəcək.

BTQ-ni dəstəkləyənlərin sırasına NATO da qoşulub. Bu təşkilatın Baş katibi İlham Əliyevin təşəbbüsünü təqdir edir. Müstəqillik tariximizin möhtəşəm layihələrindən olan bu dəmir yolu xəttini reallaşdırmaqla Prezident İlham Əliyev təsdiqlədi ki, ölkəmiz regional və qlobal əhəmiyyətli layihələri uğurla həyata keçirə bilər. Hazırda isə bu dəmir yolu xəttindən, onun gətirdiyi dividendlərdən yalnız Azərbaycan bəhrələnmir. NATO-nun timsalında görünür ki, dünyanın mötəbər təşkilatları da BTQ dəmir yolundan səmərəli faydalanırlar. Bu baxımdan BTQ dəmir yolu xəttinin işə salınması Prezident İlham Əliyevin qlobal uğuru və Azərbaycanın beynəlxalq nüfuzunu artıran, söz sahibi kimi dünyadakı mövqelərini möhkəmləndirən siyasi-iqtisadi hadisədir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Prezident fərmanı vəkillik fəaliyyətinin daha da təkmilləşməsinə mühüm töhfə verəcək

Son dövrlərdə Azərbaycanda vəkillik institutunun fəaliyyətində təkmilləşməni, həmçinin onun nüfuzunun artmasını aydın müşahidə etmək olar. Buna təkan verən amillər sırasında Azərbaycan Respublikasının Prezidentinin 22 fevral 2018-ci il tarixli "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamı, nümayəndəlik institutunun məhdudlaşdırılması kimi qanunvericiliyə müvafiq dəyişikliklər xüsusi səciyyə daşıyır.

Azərbaycan Prezidentinin bu günlərdə imzaladağı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" fərman bütün istiqamətləri ilə yanaşı, vəkillik fəaliyyətinə də mühüm töhfə verəcək. Həmin fərmanda vəkilliyin fəaliyyətinə müsbət təsir edən, inkişafına yönələn mühüm aktual məsələlər öz əksini tapmışdır. Bu baxımdan fərmanın 4.9 və 13.1-ci bəndlərini xüsusilə qeyd etmək lazımdır. Fərmanın 13.1-ci bəndində dövlət hesabına həyata keçirilən hüquqi yardım üçün tələb olunan vəsaitin dəqiq proqnozlaşdırılmasını və mərkəzləşdirilmiş uçotunu təmin etmək məqsədilə cari ilin və növbəti illərin dövlət büdcəsində dövlət hesabına göstərilən hüquqi yardıma görə vəsaitin birbaşa Vəkillər Kollegiyasına ayrılması barədə müvafiq normativ hüquqi aktların layihələrini hazırlayıb bir ay müddətində Prezidentə təqdim edilməsi Nazirlər Kabinetinə tapşırılmışdır. Qeyd edilən islahat vəkilin dövlət hesabına göstərilən hüquqi yardıma görə vəsaiti almasını qat-qat asanlaşdırır, nəzarət baxımından vəkilin öz səlahiyyətlərindən sui-istifadə hallarının qarşısını alır və bununla da dövlət büdcəsindən ayrılan pul vəsaitinin səmərəli istifadəsini təmin etmiş olur.

Fərmanın 4-cü bəndində nəzərdə tutulan məqam isə mülki və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının effektivliyinin artırılmasına, sahibkarlıqla bağlı məsələlərin məhkəmələrdə daha sürətli və səmərəli həllinin təmin edilməsinə və mülki prosessual qanunvericiliyin, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, təkmilləşdirilməsinə yönəlib. Bu da vəkillərin təcrübədə qarşılaşdığı mülki prosessual qanunvericiliyində olan boşluq və çatışmazlıqları aradan qaldıracaq, vətəndaşların hüquqlarının müdafiəsinin səmərəliliyini artıracaqdır.

Son fərmana qədər ölkə rəhbərinin bu kontekstdə həyata keçirdiyi tədbirlər artıq müsbət nəticələr vermişdir. Fərman isə bu istiqamətdə aparılan islahatların davamı olaraq məhkəmə icraatının, vəkillik fəaliyyətinin, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsinin effektivliyinin artırılmasını təmin edəcək.

Vurğulamaq lazımdır ki, dövlət başçısının məhkəmə-hüquq sistemində islahatları və vəkilliyin inkişafı ilə bağlı tədbirləri Azərbaycan Respublikasının vətəndaşlarının rifahının və hüquqlarının təmin olunmasına yönəlib. Vətəndaşların yüksək keyfiyyətli hüquqi yardımın alınması imkanı vətəndaş hüquqlarının təmin edilməsinin mühüm meyarlarından biridir və sözügedən fərman dövlət başçısının məhz buna yönələn tədbirlərindəndir. Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində bu gün Azərbaycanın hər bir vətəndaşı konstitusiyada təsbit olunmuş yüksək keyfiyyətli hüquqi yardım almaq hüququndan, hüquq və azadlıqların inzibati və məhkəmə təminatından, məhkəmə müdafiəsindən effektiv istifadə etmək imkanına malikdir.

***Lalə NAĞIYEVA,***
***Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü***

# Məhkəmə-hüquq sistemində dərin islahatlar başlanır

## Tapşırıq və tövsiyələr yerinə yetirildikdən sonra bu sahədə şəffaflıq tam təmin olunacaq

*Əvvəli 1-ci səh.*

Sənədi yüksək dəyərləndirən deputat hesab edir ki, verilən tapşırıq və tövsiyələr yerinə yetirildikdən sonra məhkəmə-hüquq sistemində şəffaflıq tam təmin olunacaq: "Məhkəmə-hüquq sistemi bütün islahatların tərkib hissəsidir. Ədalət mühakiməsinin qanunçuluq, qərəzsizlik, aşkarlıq prinsiplərinə uyğun aparılması qanunvericilikdə əksini tapsa da, fərmanda bu işin daha keyfiyyətli olması üçün prinsipial mövqelərin işlənib hazırlanması tövsiyə olunur".

Fərmanda Ali Məhkəməyə, Baş Prokurorluğa və Ədliyyə Nazirliyinə tövsiyə olunur ki, cəza siyasətinin humanistləşdirilməsi və dekriminallaşması ilə tədbirlər görsünlər. Deputat deyir ki, hələ 2017-ci ilin fevralında "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi haqqında" sərəncam imzalanan zaman bu addımların mütəmadi olaraq atılacağı barədə anons verilmişdi.

Tahir Kərimliyə görə, fərmanda ən mühüm məsələlərdən biri sahibkarlıqla bağlı xüsusi ixtisaslaşmış məhkəmənin yaradılması barədə tapşırıqdır: "Konstitusiyada ixtisaslaşmış məhkəmənin yaradılması nəzərdə tutulub. İnkişaf etmiş bir sıra dövlətlərdə bu cür məhkəmələr var. Bu məhkəmələrdə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə məsələlərə baxılır. Məhkəmə hakimlərinin sayının artırılması ilə bağlı tapşırıq da çox mühümdür, onlarının sayının 200 nəfər artırılması nəzərdə tutulur. Hakimlərin çoxluğundan çəkinmək lazım deyil. Hakimlərin sosial müdafiəsinin gücləndirilməsi mühüm məsələlərdəndir. Hakimlər o qədər yaxşı təmin olunmalıdır ki, rüşvət almağa ehtiyacı olmasın".

### Audioyazı məhkəmə iclasında səslənən fikirlərin təhrifinə imkan verməyəcək

Deputatı hər zaman narahat edən məsələ isə məhkəmə iclaslarının protokollarının tərtib olunması prosesidir:

"Fərmanda birbaşa göstərilir ki, bütün məhkəmə iclaslarının audioyazısı olmalıdır, protokol da buna uyğun hazırlanmalıdır. Bəzi hallarda məhkəmə iclasında deyilən sözlər dəyişdirilir, əksini sübut etmək də mümkün olmur. Audioyazı olduğu təqdirdə bu cür pozuntulara yol verilməyəcək. Bu fərmanla məhkəmə-hüquq sistemində şəffaflıq tam təmin olunacaq. Bəzi hallarda məhkəmə sədrləri baxılacaq işləri hakimlər arasında bölür. Burada "yaxşı" və "pis" iş bölgüsü olur. Prezidentin fərmanında bu cür halların aradan qaldırılması üçün mexanizmin hazırlanması nəzərdə tutulur. Məhkəmə işləri seçimlə olmamalıdır. Xarici ölkələrdə özəl icra qurumları fəaliyyət göstərir, hətta onlar təhqiqat işlərində də iştirak edə bilirlər. Düşünürəm, ölkəmizdə də belə qurumlar yaradılacaq".

### Ədalət mühakiməsinin əlçatanlığı və şəffaflığı artacaq

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü, hüquqşünas Çingiz Qənizadə isə deyir ki, ictimai münasibətlər sisteminin qanuna müvafiq qaydada tənzimlənməsində, insan və vətəndaş hüquq və azadlıqlarının təminatında mühüm rol oynayan məhkəmə hakimiyyətində kompleks islahatların həyata keçirilməsi Prezident İlham Əliyevin daim xüsusi diqqət mərkəzində olub. Dövlət başçısı hər zaman bu sistemdə şəffaflığın yaradılması, bəzi arzuolunmaz halların aradan qaldırılması ilə bağlı tapşırıqlar verib:

"Fərmandan da göründüyü kimi, cənab Prezident ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması məqsədilə ölkənin bütün məhkəmələrinin sədrlərinə və hakimlərinə tövsiyə edir ki, məhkəmə hakimiyyətinin nüfuzunun artırılması və cəmiyyətdə məhkəmələrə etimadın möhkəmlənməsi üçün fəaliyyətlərində ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi, Konstitusiya və qanunlarda təsbit edilmiş ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən riayət etsinlər".

Deputatın fikrincə, cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirləri davam etdirmək məqsədilə müvafiq qanun layihələrinin hazırlanması da bu istiqamətdə görülən işlərə yenilik gətirəcək.

Fərmanda, həmçinin ədalət mühakiməsinin əlçatanlığının və şəffaflığının daha da artırılması məqsədilə "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə əlaqədar təşkilati işlərin yekunlaşdırılması da qarşıya qoyulan tələblərdən biridir. Çingiz Qənizadəyə görə, bu sistemin tətbiqi ilə göstərilən xidmətlərin keyfiyyəti daha da artacaq, informasiya təminatı yaxşılaşacaq, məhkəmənin ümumi iş fəaliyyətində operativlik təmin olunacaq. Elektron sistem eyni zamanda vətəndaşların hüquqlarının səmərəli müdafiə edilməsi üçün effektiv vasitə qismində çıxış edəcək. İnformasiya sistemi fiziki və hüquqi şəxslərin məhkəmələrə müraciətlərinin, iddia ərizələrinin, müxtəlif məhkəmə instansiyalarına şikayətlərin elektron formada qəbul edilməsinə şərait yaradacaq. Bütün bunlar da insan hüquqlarının müdafiəsi mexanizmlərinin əhaliyə daha da yaxınlaşması deməkdir.

Deputat deyir ki, nəzərdə tutulan yeniliklər, ideya və prinsiplər məhkəmələrin fəaliyyətinin yeni standartlarını yaradacaq. İnformasiya texnologiyalarının tətbiqi insanların məhkəməyə yeni və daha rahat üsullarla müraciət etmək imkanını yaratmaqla yanaşı, vaxt itkisini tamamilə aradan qaldıracaq, ən başlıcası isə məhkəmələrin fəaliyyətini tam şəffaf edəcək: "Fərmanda qərarların proqnozlaşdırılması da nəzərdə tutulub. Bu, olduqca vacib məqamdır. Sənəddə ən vacib məsələlərdən biri də məhkəmə proseslərinin audioyazısının aparılması ilə bağlıdır. Audioyazı ilə keçirilən məhkəmə prosesi zamanı hakimlər saxtakarlığa yol verməkdən çəkinəcəklər.

"Dövlət başçısının imzaladığı fərmanda göstərilən tələblərin yerinə yetirilməsi ilə bağlı görüləcək işlər bu sahədə inqilabi yeniliklər edəcək. Yaxın illərdə biz ədalət mühakiməsinin keyfiyyəti və texniki imkanlar baxımından tamamilə yeni məhkəmələrin formalaşdığının şahidi olacağıq".

Hüquqşünasların fikirlərindən belə aydın olur ki, dövlət başçısının imzaladığı yeni fərman məhkəmə-hüquq sisteminə, demokratik cəmiyyət quruculuğuna böyük töhfədir. Sənədin icrası bu sistemdə köklü dəyişikliklərlə yadda qalacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# AMEA-da akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının təqdimatı olub






Aprelin 5-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik Akif Əlizadə təqdimatı keçirilən bu kitabın tarixşünaslığımıza sanballı töhfə və gənc tarixçilər üçün dəyərli mənbə olduğunu bildirib. Akif Əlizadə qeyd edib ki, elmi faktlara əsaslanan bu sanballı kitab zəngin fikir və mülahizələrlə xanlıqlar dövrünə aid bir çox yanlış yanaşma və şərhləri aradan qaldırmaq baxımından böyük əhəmiyyətə malikdir. Nəşr Azərbaycan tarixşünaslığında, ictimai fikrində məsələyə münasibətdə daha sistemli və ədalətli baxışın formalaşmasına geniş imkanlar yaradacaq.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli akademik Ramiz Mehdiyevin ictimai-siyasi fəaliyyətini qeyd etməklə yanaşı, Azərbaycan dövlətinin ideoloji əsaslarını təşkil edən bir sıra sanballı tədqiqat əsərlərinin müəllifi olduğunu bildirib. İ.Həbibbəyli "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının da akademikin əvvəlki fundamental tədqiqatları kimi böyük elmi əhəmiyyətə malik olduğunu, yeni tədqiqatlar üçün imkanlar açdığını söyləyib. O, bu kitabı zəngin arxiv materialları, mühüm tarixi qaynaqlar, hərtərəfli müqayisələr, dərin təhlillər əsasında yazılmış, tarixşünaslığımıza töhfə olan əsər kimi dəyərləndirib. Bildirib ki, akademik Ramiz Mehdiyevin Səfəvilər, Nadir şah haqqında tədqiqatları Azərbaycan tarixşünaslıq elmində ən mühüm nailiyyətlərdən biridir. "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı da bu tədqiqatların məntiqi davamı olaraq, həm dəyərli elmi mənbə, həm də gənc tədqiqatçılar üçün istiqamətverici proqramdır. İsa Həbibbəyli kitabı xanlıqlar dövrümüzə yeni elmi və obyektiv baxış kimi dəyərləndirib.

AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov, Fəlsəfə İnstitutunun direktoru, fəlsəfə üzrə elmlər doktoru, professor İlham Məmmədzadə, Qafqazşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Musa Qasımlı, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda şöbə müdiri, filologiya üzrə elmlər doktoru, professor Tahirə Məmməd, Qafqazşünaslıq İnstitutunun ümumi işlər üzrə direktor müavini Şahin Yəhyayev və digər çıxış edənlər akademik Ramiz Mehdiyevi aktual, tədqiqi zəruri olan kəskin problemləri öncədən görmək və yüksək elmi səviyyədə araşdırmaq qabiliyyəti ilə fərqlənən alim kimi xarakterizə ediblər. Qeyd olunub ki, akademik Ramiz Mehdiyevin alim və vətəndaş mövqeyini əks etdirən "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı tarixşünaslığımızda hadisədir. Müəllif ilk dəfə olaraq həmin dövrü siyasi və tarixi nöqteyi-nəzərdən mahiyyətcə yeni kontekstdə təhlil edib, bir çox qaranlıq məqamlara aydınlıq gətirərək, onilliklər ərzində formalaşmış stereotipləri qırmağa çalışıb. Eyni zamanda, tarixşünaslığımızın həmin dövrlə bağlı aktual problemlərinə toxunaraq onların optimal həll yollarını göstərib.

Tədbirdə, həmçinin bildirilib ki, sözügedən kitab Azərbaycan tarixinin ən ağrılı və həssas mərhələlərindən sayılan xanlıqlar dövrünün indiyədək tarixşünaslığımıza məlum olmayan siyasi sənədlər əsasında qiymətləndirilməsi istiqamətində atılmış mühüm elmi addımdır. Ümumilikdə 22 orijinal sənədin daxil edildiyi toplu xanlıqlar dövrünün siyasi təhlilinə və tarixi dəyərləndirilməsinə həsr olunan sanballı tədqiqat işidir. Nəzərə çatdırılıb ki, müəllif xanlıqlar dövrünün indiyədək ciddi elmi mübahisələrin predmeti olan bir sıra mühüm problemlərinə, hadisə və şəxsiyyətlərə faktlar və etibarlı elmi mənbələr, arxiv sənədləri əsasında münasibət bildirir, həmin tarixi mərhələyə obyektiv qiymət verməyə mane olan məsələlərə aydınlıq gətirir.

Vurğulanıb ki, nəşrdə təqdim edilən və müvafiq şərh və izahlarla müşayiət olunan sənədlər müxtəlif tarixi dövrlərin real mənzərəsinə aydınlıq gətirmək baxımından böyük əhəmiyyətə malikdir. Həmçinin tanınmış alimlərin xanlıqlar dövrünün hadisələri ilə bağlı maraqlı fikirlərinə istinad edilən kitabda oxucuya həmin dövrün mühüm şəxsiyyətləri və hadisələrinə dair yığcam məlumat verilir.

Qeyd olunub ki, nəşr həm peşəkar tarixçilər və mənbəşünaslar, həm də Azərbaycan tarixi ilə dərindən maraqlanan oxucular üçün nəzərdə tutulub.

# Moskvada MDB Xarici İşlər Nazirləri Şurasının növbəti iclası keçirilib






Aprelin 5-də Moskvada MDB Xarici İşlər Nazirləri Şurasının növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycanı xarici işlər naziri Elmar Məmmədyarovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Nazirlər əvvəlcə məhdud tərkibdə iclasın gündəliyinə daxil edilmiş məsələləri müzakirə ediblər.

İclas iştirakçıları MDB Dövlət Başçıları Şurasının Böyük Vətən müharibəsinin başlanmasının 80-ci ildönümü ilə bağlı bəyanatının layihəsi, MDB Xarici İşlər nazirlikləri arasında tərəfdaşlığın fəallaşdırılmasına dair fəaliyyət proqramı, Böyük Vətən müharibəsi abidələrinin və məzarlıqlarının qorunması, MDB ölkələrinin fundamental tədqiqatlar sahəsində dövlətlərarası münasibətlərin əlaqələndirilməsi və MDB Xarici İşlər Nazirləri Şurasının növbəti iclasının keçirilməsi ilə bağlı məsələləri müzakirə ediblər.

Sonra MDB Xarici İşlər Nazirləri Şurasının geniş tərkibdə görüşü keçirilib.



Görüşdə 2018-2019-cu illər MDB çərçivəsində Xarici İşlər nazirlikləri arasında məsləhətləşmələr Planına, MDB ölkələrinin muzey işi sahəsində əməkdaşlığı haqqında saziş layihəsinə, azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzaların yerinə yetirilməsinin ötürülməsi haqqında konvensiyanın layihəsinə, MDB ölkələrində informasiya texnologiyalarından istifadə olunmaqla törədilən cinayətkarlıqla mübarizə sahəsində kadrların hazırlanmasına dair sənədlər imzalanıb.

Sonda Rusiya xarici işlər naziri Sergey Lavrov, MDB İcraiyyə Komitəsinin sədri Sergey Lebedev və Türkmənistanın xarici işlər naziri Rəşid Meredov mətbuat konfransı keçiriblər.

Mətbuat konfransında çıxış edən Türkmənistanın xarici işlər naziri R.Meredov MDB Xarici İşlər Nazirləri Şurası üzvlərinin Birlik çərçivəsində əməkdaşlığı inkişaf etdirmək barədə yekdil razılığa gəldiklərini qeyd edib.

MDB İcraiyyə Komitəsinin sədri Sergey Lebedev çıxışında bildirib ki, MDB Xarici İşlər Nazirləri Şurasının bu iclasında mühüm qərarlar qəbul edilib. MDB XİN-lərinin qarşılıqlı fəaliyyəti, beynəlxalq təşkilatlarda əlaqəli iştirakı və digər vacib məsələlərlə bağlı razılıq əldə edilib. MDB-nin tezliklə fəaliyyətini dayandıracağı barədə şayiələrin əsassız olduğunu qeyd edən S.Lebedev bu il təşkilat çərçivəsində keçiriləcək mühüm tədbirlərin əhəmiyyətini vurğulayıb. O, MDB-də Türkmənistanın sədrliyini yüksək qiymətləndirib.

Rusiyanın xarici işlər naziri Sergey Lavrov beynəlxalq aləmdə suveren dövlətlərin daxili işlərinə qarışılması, tarixin saxtalaşdırılması kimi mövcud çağırışların qarşısının alınmasının vacibliyini vurğulayıb. O, bu sahədə MDB ölkələrinin fəaliyyətinin əlaqələndirilməsinin və BMT nizamnaməsinin norma və prinsiplərinə riayət olunmasının vacibliyini vurğulayıb.

MDB Xarici İşlər Nazirləri Şurasının növbəti iclası oktyabrın 10-da Aşqabadda keçiriləcək.

# Moskvada Azərbaycan və Rusiya xarici işlər nazirlərinin görüşü olub



Aprelin 5-də Moskvada MDB Xarici İşlər Nazirləri Şurasının iclasında iştirak edən Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov ilə ikitərəfli görüş keçirib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Rusiya arasında siyasi dialoqun və çoxşaxəli əməkdaşlığın yüksək səviyyədə olduğundan məmnunluq ifadə edilib və qarşılıqlı maraq doğuran məsələlərə toxunulub.

# *Elmar Məmmədyarov:* "Lavrovla görüşdə Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması məsələsini də müzakirə etdik"

Azərbaycan və Rusiya xarici işlər nazirləri Elmar Məmmədyarov və Sergey Lavrov MDB Xarici İşlər Nazirləri Şurasının Moskvada keçirilən növbəti iclası çərçivəsində ikitərəfli görüş keçiriblər.

AZƏRTAC xəbər verir ki, görüşdən sonra Elmar Məmmədyarov jurnalistlərə bildirib ki, tərəflər təkcə ikitərəfli münasibətlərin gündəliyini deyil, həm də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsini müzakirə ediblər. "Ən yaxın günlərdə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Minsk qrupunun həmsədrlərinin iştirakı ilə görüşü keçiriləcək. Düşünürəm ki, Sergey Lavrov da görüşdə iştirak edəcək. Ehtimal ki, görüş Moskvada keçiriləcək", - deyə nazir bildirib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması prosesindən danışan nazir bildirib ki, ümumilikdə Vyana görüşü çətinliklə olsa da təmas nöqtələrinin sezildiyini göstərdi: "Təbii ki, heç kim münaqişənin tezliklə nizama salınacağını gözləmir. Azərbaycan Prezidenti ilə Ermənistanın baş nazirinin görüşündən üç saat sonra Ermənistanın müdafiə naziri yeni müharibə, yeni ərazilər barədə bir bəyanat verdi. Düşünürəm ki, bu, daxili auditoriya üçün nəzərdə tutulmuşdu. Mən erməni tərəfinə hər zaman sual verirəm ki, 30 illik münaqişə dövründə Ermənistan vətəndaşları nə əldə ediblər? Ermənistanda yoxsulluğun səviyyəsi 40 faizdən çoxdur, demoqrafik vəziyyət çox kəskin səviyyəyə çatıb. Azərbaycan tərəfi dəfələrlə deyib ki, ermənilər mütləq qonşuları ilə normal, mehriban qonşuluq əlaqələri qurmalıdır. Onlar, nə qədər gülməli olsa da, mütəmadi olaraq deyirlər ki, diaspor bizə kömək edəcək. Amerika vətəndaşlığından imtina edib arvadı və iki oğlu ilə 1990-cı illərdə Ermənistana gələn Vardan Oskanyandan başqa diaspordan indiyədək Ermənistana kim köçüb? Deməli, etibar etmirlər".

Nazir qeyd edib ki, nizamasalma mürəkkəb prosesdir. Əhalini sülhə hazırlamaq lazımdır. Onlar deyirlər ki, sülh əvəzinə ərazilərin qaytarılması Ermənistan üçün mümkün deyil. Yaxşı, qoy onda rifah əvəzinə sülh olsun. Ermənistan Azərbaycanla 30 illik müharibə dövründə nə əldə edib? Onlar bizdən soruşur: "Bəs siz nə əldə etmisiniz". Mən cavab verirəm ki, iqtisadiyyatımız inkişaf edib, dəmir yolları, avtomobil yolları salınıb, neft kəmərləri çəkilib. Mən Azərbaycanın regionda iqtisadi liderliyini sübut edən hələ çox nümunə gətirə bilərəm. Ermənilər, ilk növbədə, əhalini inandırmalıdırlar. Çünki bu, gələcəkdir. Onlar deyirlər ki, Qarabağdakılar çətin insanlardır. Ancaq bu, bizim problemimiz deyil. Siz izah etməlisiniz ki, Azərbaycanla münasibətləri nizama salmasa, Ermənistanın gələcəyi yoxdur".

E.Məmmədyarov vurğulayıb ki, Azərbaycan öz tərəfindən sülhə hazırlıq üçün tədbirlər görür. "Biz Azərbaycan və Ermənistan jurnalistlərinin qarşılıqlı səfərləri barədə danışıqlar aparırıq. Sergey Lavrov ilə görüşdə də bu barədə danışdıq. Bunu hansı formada edəcəyimiz barədə müzakirə apardıq".

Humanitar addımlardan danışan nazir deyib: "Nə üçün Ermənistanda əsirlikdə olan Şahbaz Quliyev və Dilqəm Əsgərovun qohumları gəlib onlarla görüşə bilmirlər? Nə üçün onlar qəbiristanlığa gedə bilməzlər? Onlar da bizə Karapetyanla bağlı sual verirlər. Odur ki, biz insanların ünsiyyəti üçün şərait yaratmalıyıq. İnsanlar nə qədər ünsiyyətdə olsalar, o qədər yaxşıdır. Başqa variant yoxdur. Başqa variant müharibədir".

# Yanğından zərər çəkmiş sahibkarlara maddi yardımın ödənilməsinə başlanılıb



Xəbər verdiyimiz kimi, Bakının Nizami rayonunda yerləşən ticarət mərkəzində baş vermiş yanğında zərər çəkmiş sahibkarlara maddi yardım göstərilməsi barədə Azərbaycan Respublikası Prezidentinin sərəncamına uyğun olaraq, zərər çəkmiş sahibkarlara maddi yardım göstərilməsi qaydası təsdiq edilib və dövlət qeydiyyatına alınıb. Aprelin 4-dən İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin inzibati binasında zərər çəkmiş sahibkarlardan maddi yardımın göstərilməsi ilə bağlı sənədlərin qəbuluna başlanılıb. Həmin gün 93 sahibkarın maddi yardımla bağlı ərizəsi qəbul edilib. İşçi Qrupu tərəfindən 57 sahibkara 570 min manat ödənilməsi qərara alınıb, 36 müraciət üzrə araşdırma aparılır.

AZƏRTAC xəbər verir ki, aprelin 5-də maddi yardımın göstərilməsi üçün daha 90 sahibkardan ərizə qəbul olunub. Ümumilikdə indiyədək 183 sahibkar maddi yardımla bağlı ərizə ilə müraciət edib.

Maddi yardım göstərilməsi qaydasına əsasən, müəyyən olunmuş vəsaitlərin artıq zərər çəkmiş sahibkarların bank hesablarına köçürülməsinə başlanılıb. Ödənişlər "Kapital Bank" və "TuranBank" vasitəsilə həyata keçirilir. Vəsaitlər sahibkarlara bank kartları vasitəsilə nağdsız şəkildə verilir və banklar tərəfindən maddi yardımdan xidmət haqqı tutulmur.

Həmin gün iqtisadiyyat naziri Şahin Mustafayevin iştirakı ilə yanğından zərər çəkmiş 57 sahibkara bank kartları təqdim edilib.

Sahibkarlar onlara göstərilən böyük diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Zərər çəkmiş sahibkarlardan sənədlərin qəbulu və maddi yardımın ödənilməsi prosesi davam edir.

# İsmayıllıda Aprel döyüşlərinə həsr olunmuş tədbir keçirilib





Dördgünlük müharibə kimi tarixə düşən Aprel döyüşlərindən üç il keçib. Lakin o günlərin qəhrəmanlıq salnaməsi hər gün xatırlanır, yaddaşlarda möhkəmlənir.

2016-cı il aprelin 2-dən 5-nə kimi davam edən bu döyüşlərdə Azərbaycan Ordusunun bölmələri əks-həmlə ilə erməni işğalçılarının təxribatlarının qarşısını alıb, vətən oğulları misilsiz qəhrəmanlıq nümunələri göstəriblər.

Dünən İsmayıllıda Aprel döyüşlərinin 3-cü ildönümü ilə əlaqədar ümumrayon tədbiri keçirilib. Aprel döyüşlərinin mahiyyət və xarakteri barədə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti İsmayıllı rayon şöbəsinin rəisi, polkovnik-leytenant Xamis Bədəlov məruzə edib.

Rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov çıxış edərək ermənilərin tarixən azərbaycanlılara qarşı soyqırımı törətdiklərini bildirib. O, Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin apardığı qətiyyətli və uğurlu siyasəti, güclü ordumuz sayəsində işğala məruz qalmış torpaqlarımızın tezliklə azad olacağına əminliyini ifadə edib. Aprel döyüşlərində şəhid olmuş Mikayıl Vahabzadə kimi oğulların daima qəlblərdə yaşayacağını diqqətə çatdırıb.

Milli Məclisin deputatı Novruz Aslanov Aprel döyüşlərini böyük qələbəmizin başlanğıcı kimi dəyərləndirib. Milli Ordumuzun dünyada güclü ordular sırasında olduğunu vurğulayıb. Azərbaycan Respublikası Prezidentinin güclü siyasəti qarşısında ermənilərin duruş gətirə bilməyəcəyini deyib.

Tədbirdə "Azərbaycan bayrağı" ordenli, ehtiyatda olan polkovnik-leytenant Eynulla Bağırov, QMƏVŞA İctimai Birliyi rayon şöbəsinin sədri Vidadi Zərbiyev, şəhid ailələri adından Aybəniz Mürsəlova, şəhid Mikayıl Vahabzadənin dayısı Taleh Şəfiyev, Aprel döyüşlərinin iştirakçısı Sərxan Aydınzadə və başqaları çıxış edərək Zəfər döyüşlərinin Böyük Qələbəyə gedən yolun başlanğıcı olduğunu, torpaqlarımızın tezliklə azad ediləcəyini bildiriblər.

Səhnədə quraşdırılmış Lələtəpənin simvolu, hərbi geyimli şagirdlərin Azərbaycan bayrağını səhnəyə gətirməsi, məktəbli-gənclərin söylədikləri şeirlər, ifa olunan vətənpərvərlik mahnıları tədbirə mübarizə ruhu, qələbə əzmi gətirib.

Sonda tədbir iştirakçıları şəhid Mikayıl Vahabzadənin həyat və döyüş yolunu əks etdirən sərgi ilə tanış olublar.

***Əli SƏLİMOV, "Azərbaycan"***

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Aprelin 5-də nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə Şabran şəhərindəki Heydər Əliyev Mərkəzində şimal bölgəsindən olan vətəndaşların müraciətlərini dinləyib.

Nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda Quba, Qusar, Xaçmaz və Şabran sakinləri iştirak ediblər.

Vətəndaşların müraciətləri telekommunikasiya, internet, poçt xidmətləri, yol təmir-tikintisi, yeni marşrut xəttinin açılması, marşrut qrafiklərində dəyişiklik edilməsi, işə qəbul və başqa məsələlərlə bağlı olub.

Nazir Ramin Quluzadə hər bir müraciəti dinləyib, qaldırılan məsələlərin həlli üçün nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib. Əksər müraciətlər yerindəcə öz müsbət həllini tapıb.

Regiona səfəri çərçivəsində Ramin Quluzadə aidiyyəti rayonların telekommunikasiya qovşaqları, poçt filialları, eləcə də Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin regional bölmələrinin və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə müşavirə keçirib.

* * *

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova aprelin 5-də Şirvan şəhərində vətəndaşların qəbulunu keçirib.

Qəbulda Şirvan şəhər, Neftçala, Salyan, Cəbrayıl, Saatlı, Sabirabad, Hacıqabul, Füzuli və İmişli rayonlarından olan sakinlər iştirak edib.

Qəbulda sağlamlıq imkanları məhdud uşaqların müalicəsi, erkən nikah və boşanmalardan yaranan problemlər, imkansız ailələrin müvafiq istiqamətdə təminatı, övladlığa verilmə, uşaq hüquqlarının müdafiəsi, məişət zorakılığına məruz qalma və sair kimi məsələlərə baxılıb.

Qəbulda vətəndaşların Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin səlahiyyət dairəsinə aid məsələlərə dair müraciətləri Komitənin müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə araşdırılaraq cavablandırılıb və aidiyyəti üzrə tədbirlər görülüb.

Sonra Komitə sədri Hicran Hüseynova şəhərin bir qrup fəal qadını ilə görüşüb. Görüşdə Şirvan şəhərində qadın və uşaq hüquqlarının müdafiəsi, qadın sahibkarlığının inkişafı və digər mövzular üzrə müzakirələr aparılıb.

***AZƏRTAC***

# Liderlik məharəti və missiyası

*İqtisad elmi hələ ki iqtisadi inkişafın əsas prinsip və qanunlarını əks etdirən kamil bir universal nəzəriyyə yarada bilməmiş, bu istiqamətdə göstərilən səylər hələlik konkret bir nəticəyə gətirib çıxarmamışdır. Lakin aparılan tədqiqatlar bir məsələni dəqiqləşdirmişdir ki, iqtisadi inkişafın əsasını institutlar təşkil edir. Bununla belə, müxtəlif istiqamətlərdə aparılan çoxsaylı tədqiqat işlərində müxtəlif institutlar iqtisadi inkişafın səbəbləri kimi göstərilsə də, bu nəticələr real həyatda tam deyil, təsdiqini qismən tapır.*

Həmin tədqiqat işlərinin təhlili kifayət qədər ziddiyyətli məqamları üzə çıxarmışdır. Apardığımız tədqiqat nəticəsində belə qərara gəlmək olur ki, iqtisadi inkişaf üçün zəruri olan institutları iki qrupa ayırmaq lazımdır. Əvvəlcə göstərmişdik ki, iqtisadi inkişaf üçün zəruri olan əsas institut liderlik institutudur. Qalan digər institutlar isə ikinci dərəcəli, ondan törəmədir. Fikrimizi əsaslandırmaq üçün liderlik institutuna bir qədər dərindən yanaşacağıq və bu zaman "lider kimdir" sualına müəyyən qədər aydınlıq gətirməyə çalışacağıq.

Reallıq budur ki, istənilən institut, yəni "oyun qaydaları" hakimiyyətin nəticəsidir. Yəni hakimiyyət birincidir, institutlar isə hakimiyyətin törəməsi kimi ikincidir. Hakimiyyət məsələsi həmişə müəyyən şəxslərlə, liderlərlə bağlı olmuşdur. Tarixdə baş verən böyük hadisələrin başında həmişə liderlər dayanmışlar və tarix sübut edir ki, liderlər tarixin gedişinə güclü təsir göstərirlər. Liderlik insan fəaliyyətinin bütün sahələrinə xasdır və ona hər yerdə rast gəlinir.

Bu səbəbdən bəşər tarixində baş vermiş istənilən hadisə konkret bir tarixi şəxsiyyətin adı ilə bağlıdır. Əslində tarix dediyimiz də əsasən elə böyük şəxsiyyətlərin gördüyü işlər, özlərindən sonra insanlara saxladıqları zəngin irs və onların məzmunlu həyatıdır. XV əsrin sonu, XVI əsrin əvvəllərində yaşayıb- yaratmış, siyasi fəlsəfə elmində inqilab etmiş böyük italyan mütəfəkkiri N.Makiavelli insanları iki qrupa bölmüşdür. Bir qrupa tarixi yaşayan insanları, digər qrupa isə tarixi yaradan insanları aid etmişdir. Əsl liderlər də, əlbəttə, məşğul olduqları sahələrdə böyük inqilablara imza atan, tarixi yaradan insanlardır. Bu məqaləmizdə də söhbət elə tarixi yaradan şəxsiyyətlər, liderlər haqqında gedəcəkdir.

İlk növbədə ondan başlayaq ki, əksər hallarda insanlar rəhbərlə lideri səhv salırlar. Liderlik psixoloji fenomendir, rəhbərlik isə sırf idarəetmə ilə əlaqəlidir. Geniş mənada lider - insanlararası münasibətlər sistemində dominantlıq və tabelik, təsiretmə və əməletmə münasibətləridir. Lider cəmiyyətin əksər üzvlərinin açıq və ya gizli razılığı əsasında dominant vəziyyəti ələ alaraq hakimiyyətin favoritinə çevrilir, təsiri və nüfuzu əsasən "qeyri-formal" xarakter daşıyır. Rəhbər isə rəsmi vəzifə tutan formal liderdir. Formal liderlər müəyyən qaydalara əsasən təyin olunurlar və funksional münasibətlər daşıyıcılarıdır. Qeyri-formal liderlər isə qrup üzvlərinin şəxsi qarşılıqlı münasibətləri əsasında meydana çıxır. Hər rəhbər lider ola bilməz, lakin hər bir liderin həm də rəhbər olmaq şansı var. Rəhbərin başçılıq etdiyi kollektivin idarəolunmasında əsas məqsədi insanların işləri düzgün yerinə yetirməsidir, liderlikdə isə əsas məqsəd düzgün, lazım olan işlərin reallaşdırılmasıdır. Formal liderlər, yəni rəhbərlər başqasının ideya və göstərişlərini, qeyri-formal həqiqi liderlər isə öz ideyalarını həyata keçirirlər. Birincilər tabeliklərində olan insanlardan, ikincilər isə ardıcıllarından, tərəfdaşlarından istifadə edirlər.

Həqiqi lider insanlar üçün taleyüklü məsələlərdə bir ümid yeridir. Lider öz şəxsi nümunəsi vasitəsilə ictimai maraqları reallaşdıran insandır və o, cəmiyyətdə tərəqqini, həyatı stimullaşdırır, təkamülə təkan verən dialektikanı aşkarlayır. Onlar cəmiyyətdə siyasi, iqtisadi və digər prosesləri aktivləşdirir, sürətləndirir, tarixi inkişafın katalizatoru rolunu oynamaqla onun istiqamətini müəyyən edən proqramlar irəli sürür, epoxal dəyişikliklərin başında dururlar. Daha parlaq liderlər isə bir dövrü qapayaraq yeni bir dövr açırlar.

Lider həm də yeni ideyaları generasiya etməyə qabil, simasını, sərbəstliyini qoruyaraq cəmiyyətin bütövlüyü və rifahını təmin etməyi, lazım gələndə məsuliyyəti öz üzərinə götürməyi, qarşısına qoyduğu məqsədlərə doğru inamla irəliləməyi və komandasını arxasınca aparmağı bacaran şəxsdir. Liderlər kommunikabelliyə, yaradıcı analitik zəkaya malik ambisiyalı, streslərə dayanıqlı, səbirli və təmkinli, kreativ, provokasiyaya uymayan, başqasının əlində oyuncağa çevrilməyən, öz iradəsinin sahibi kimi təxribat aləti olmayan, intriqalarda iştirak etməyən, heç kəsin qarşısında əyilməyən, sınmayan polad iradəyə malik şəxslərdir. Adətən bu tip insanlar xarizmaya, yəni onları başqalarından kəskin surətdə fərqləndirən tamamilə başqa bir keyfiyyətə malik olurlar. Bu, liderə xas olan əsas fərqli xüsusiyyətdir. Xarizmanı əsaslandıran bu fərqli xüsusiyyətlər müxtəlif, o cümlədən məsələlərə hamı kimi standart deyil, fərqli yanaşma, fərqli baxış bucağı, fərqli düşüncə tərzi, leksikonunda qeyri-standart ifadə və kəlmələrdən geniş istifadə, iti ağıl və hazırcavablıq, istedad, incə yumor hissi, geniş bilik diapazonu və s. kimi keyfiyyətlər ola bilər. Əsl lider əksər menecerlərin riayət etdiyi qəbul olunmuş standartlara, yazılmayan qaydalara, qanunlara deyil, öz prinsiplərinə uyğun hərəkət edirlər və başqalarını da buna uyğun hərəkət etməyə sövq edirlər.

Qədim yunan filosoflarından biri demişdir: "Qanun hörümçək toru kimidir - zəiflər orada çabalayaraq ilişib qalırlar, güclülər isə onu yırtıb dağıdırlar". Bu mənada əsl lideri heç bir yazılan və ya yazılmayan qanun qorxutmur, o, sırınan istənilən oyun qaydasını heçə çevirərək öz qaydalarını diktə edir. Lider yalnız öz bildiyi qaydalara uyğun yaşayır və fəaliyyət göstərir. Bir gerçəkliyi, əsas məsələni dərk etmək lazımdır ki, əsl lider hamı kimi olmur, o, tamamilə fərqli bir insandır. Xarizmatik lideri müəyyən edən digər əsas amil onun missiyasıdır. Məhz missiya liderin həyatının əsas məqsədi, qələbələrə aparan əsas amildir. Məqsədsiz lider isə sadəcə nonsesdir.

Həqiqi liderin gücü həmişə insanlara şəxsiyyət kimi yanaşmasında, onun öz dəyərlərinə, həyat kredosuna sadiq olmasındadır və onlar heç bir halda bu dəyərlərə xəyanət etmirlər, arxa çevirmirlər. Hamıda olmayan bu keyfiyyətlər liderə güc, qüdrət verir və onun arzularından, ehtiraslarından yüksəkdə durur. Əsl liderin dəyərlər sistemini heç kəs dağıda bilmir, çünki bu dəyərlərdən imtina liderin özündən imtina etməsi deməkdir.

Liderlərə xas olan digər bir xüsusiyyət onlarda olan səmimi yumor hissidir. Yüksək yumor hissi yüksək intellektual səviyyənin mövcudluğundan xəbər verir. Yumor hissi şit zarafat deyil, ali düşüncədir.

Liderin ünsiyyət qurmaq bacarığı, kommunikabelliyi, söhbətcil, maraqlı müsahib ola bilməsi də vurğulanmalıdır. İnsanlar böyük məmnuniyyətlə onunla münasibət qurur, ünsiyyətə can atırlar. Liderlər bu zəruri alətdən kifayət qədər uğurla istifadə edirlər. Ünsiyyət qurmağı, öz ideyalarını ifadə etməyi, onları insanlara hamının başa düşə biləcəyi şəkildə ötürməyi bacarmayan şəxs heç vaxt insan kütlələrini ardınca apara bilməz.

Liderin həmişə əlinin altında hazır strategiyası olur, hətta strategiyası olmasa belə, yeni və fərqli biliklərə malik olduğu üçün ani olaraq strategiya işləyib hazırlamağı bacarır. O öz diqqətini həm xırda detallarda, həm də qlobal məsələlərdə cəmləşdirməyi bacarır, strategiya yarada və öz ideyalarını reallaşdırmaq üçün atacağı hər bir addımın alqoritmini müəyyən edə, problemin ümumi mənzərəsini görə bilir.

Lider üçün standart qaydalar mövcud deyil, o, nadir yaradıcı təfəkkürə malik bir insandır, öz təfəkkürünün gücünə və həyat təcrübəsinə əsaslanaraq qaydaları özü yaradır. Hislərinə, güclü intuisiyasına, dəmir məntiqinə əsaslanaraq öz dəyərlər sisteminə uyğun qərarlar qəbul edir. Lider həmişə öz fəaliyyətini və ideyalarını mümkün olan bütün vasitələrlə genişləndirir. O, ətraf mühit üçün açıqdır, istənilən yeni imkanlara, ağıllı ideyalara "hə" deyir və hətta uğursuzluğa düçar olduqda belə ruhdan düşmür, hər şeyi yenidən başlamağı bacarır. Lazım olduqda risk etməyə hazır olması liderin əsas xüsusiyyətlərindən biridir. Lider öz istəklərini ətrafdakıların istəyilə uzlaşdırır, onlarla ümumi dil tapır, tələbatlarını eşitməyə və nəzərə almağa hazır olur.

Bütün bunlardan belə bir nəticə çıxarmaq olar ki, liderlik qabiliyyətini, bacarığını sonradan həyat fəaliyyəti nəticəsində qazanmaq mümkün deyil, lider elə anadan lider kimi doğulur. Bu cür anadangəlmə xüsusiyyəti olan əsl lider hamının hörmət və fəxr etdiyi, oxşamaq istədiyi insandır. Bəzən elə bir kritik vəziyyət meydana çıxır ki, liderlər onlar üçün diskomfort yaradan qərarlar qəbul etməyə məcbur olurlar. Amma liderin kritik məqamlarda qəbul etdiyi taleyüklü qərarlar müəyyən zaman keçdikdən sonra onun strateji cəhətdən nə qədər uzaqgörən olmasını sübut edir.

Liderlərin fəaliyyətini təhlil edən R.Taker siyasi favoritləri üç tipə bölmüşdür: konservatorlar, islahatçılar və inqilabçılar. Konservatorlar həmişə status-kvonun saxlanılmasında maraqlı olurlar. İnqilabçıların məqsədi prinsipial olaraq tamamilə fərqli bir sistemə keçiddir. Lider-islahatçı isə yenidən qurandır, onlar yaradıcılıq nümayiş etdirir, öz ardıcıllarını vəddən vədə deyil, nəticədən nəticəyə aparır, insanları dividendlərə yox, əməyə, zəhmətə istiqamətləndirirlər.

Yalnız lider-qəhrəmanlar tarixin axarını müəyyən edir, bir dövrü qapayaraq yeni bir dövr, era, epoxa açırlar. Makedoniyalı İskəndər, Çingizxan, Əmir Teymur, Qanuni Sultan Süleyman, C.Vaşinqton, T.Cefferson, U.Çörçil, Atatürk, Şarl de-Qoll kimi tarixi şəxslər məhz bu tip lider-qəhrəmanlar olmuşlar və tarixin axarını dəyişmişlər. Məhz buna görədir ki, liderlər sadalanan siyasi xadimlər və böyük sərkərdələr çoxluq təşkil etməklə diqqəti daha çox cəlb edirlər. Lakin müasir dövrün öz xüsusiyyətləri var və onun tələbləri dövrə uyğun olur. Müasir dövrün liderlərində yuxarıda sadalanan müsbət keyfiyyətlərdən əlavə, kütlələrin maraqlarını ifadə etmək, innovasiyalara meyillilik, daim yeni ideya, proqramlar irəli sürmək, həmişə siyasi cəhətdən məlumatlı olmaq, siyasi zamanı hiss etmək, duymaq, lazım olan anda kompromisə gedə bilmək bacarığı kimi keyfiyyətlərə də malik olmalıdır. İrəli gedərək bildirək ki, Heydər Əliyev məhz belə liderlərdən idi.

Siyasi liderlərə xas olan əksər keyfiyyətləri iqtisadiyyat, təsərrüfat, istehsal sahəsində çalışan insanlara da aid etmək olar. Bəllidir ki, inkişafın innovasiya tipi bazar sistemli ölkələrdə aparıcı rol oynayır. Bu sahədə innovativ liderlər sırasında C.Ford, S.Rokfeller, N.Rotşild, A.Düpon, T.Edison, B.Geyts, S.Sobs, S.Xonda kimi biznes dünyasının nəhəngləri var. Onlar dəyişikliklərə, "yaradıcı dağıdıcılığa" səy göstərmək, ənənələrə qarşı qiyam, biliyə həvəs, hər şeyi öyrənmək və bilmək marağı, "iş hər şeydən üstündür" prinsipinə uyğun davranış, sarsılmaz optimizm, xarizmatik liderlik, insanlara təsir edə bilmək bacarığı, həyatda və işdə risk etmək, təşəbbüskarlıq, novatorcasına öncəgörməlik və gələcəyi proqnozlaşdıra bilmək qabiliyyəti kimi təkrarsız xüsusiyyətlərə malik olmuşlar.

Elm sahəsindəki liderlik də özünəməxsus xüsusiyyətlərə malikdir. Məlumdur ki, elmi tədqiqatlar iki - fundamental və tətbiqi istiqamətlərdə aparılır. Bu sahədə liderlik əsasən birinci istiqamətdə, yəni fundamental kəşflər edən alimlərə məxsusdur. Fundamental tədqiqatlara təbiət qanunlarının kəşfinə, hadisələr və real gerçəkliyin, həqiqətin obyektləri arasındakı münasibətlərin müəyyən olunmasına yönələnlər aid edilir. Kəşfin fundamentallığının əsas əlaməti öz əksini konseptual universallıq və məkan-zaman ümumiliyində tapır. Tətbiqi elm köhnə metodları təkmilləşdirirsə, fundamental elm yeni metodlar yaradır, tətbiqi elm islahatlara aparırsa, fundamental elm inqilablara gətirib çıxarır. Fundamental tədqiqatlarda əsas məsələ problemin qoyuluşudur və bu, xüsusi qabiliyyət, istedad tələb edir.

Belə bir fikir mövcuddur: istedadlı insan o insandır ki, qarşıya qoyulan problemi hamıdan yaxşı həll edir, dahi odur ki, qoyduğu problem heç kəsin ağlına gəlmir. Yaxud istedadlı insan heç kəsin bilmədiyi, dahilər isə heç kəsin başa düşmədiyi suallara cavab tapırlar. Məsələnin gizli əsasını görə bilmək bacarığı, daha sonra məsələni qoymaq qabiliyyəti, onu kənar, yad, təsadüfi vəziyyətlərin, şəraitlərin böyük kütləsi içərisindən taparaq ayırmaq və nəhayət, onun pərdələnərək gizli qalan mahiyyətinə qədər gedib çıxmaq qarşıya qoyulmuş məqsədə nail olmağa zəmanət verir.

Fundamental elmi kəşflər digər kəşflərdən həm də onunla fərqlənir ki, onlar mövcud prinsiplərdən deduksiya əsasında alınmırlar. Böyük kəşflər yeni prinsiplərin işlənilməsi nəticəsində olur. Elm tarixində fundamental olaraq Evklid həndəsəsi, Lobaçevski həndəsəsi, Kopernikin heliosentrik sistemi, Nyutonun klassik mexanikası, Mendel genetikası, Eynşteynin nisbilik, Darvinin təkamül, iqtisad elmində A.Smitin liberal iqtisadiyyat, C.M.Keynsin səmərəli tələb, R.Konzun sosial xərclər nəzəriyyələrini misal göstərmək olar. Adları çəkilən bu böyük zəka sahibləri məşğul olduqları elm sahələrində təkrarsız liderlik keyfiyyətlərini parlaq şəkildə nümayiş etdirmişlər. Onların kəşfləri bütövlükdə həqiqət, gerçəklik haqqındakı mövcud təsəvvürlərin, baxışların əsasını sarsıdaraq kökündən dəyişmişdir.

Bu məqalə liderlik institutu və iqtisadi inkişaf arasında səbəb-nəticə əlaqəsinin araşdırılmasına həsr olunduğu üçün biz təkcə dövlət idarəçiliyi sahəsində liderlik etmiş tarixi şəxsiyyətləri deyil, konseptuallıq baxımından əsas ideyaya, iqtisadiyyat, elm sahəsində oynadığı rola da qısa nəzər salıb keçməyi zəruri hesab edirik. İnkişaf etmiş və yüksək iqtisadi artım tempi göstərən dövlətlərin keçdiyi yolu təhlil etdikdə belə bir fikrə gəlmək olur ki, onların bu səviyyəyə çatmasında əsas səbəb liderlik və siyasi iradə institutlarının mövcudluğu olmuşdur. Həmin ölkələr indiki uğurlara asanlıqla nail olmamış, bu yolda mübarizə aparmışlar. Bu mübarizədə onlara qüdrətli tarixi şəxsiyyətlər liderlik etmişlər. Siyasi iradə və güclü liderlik kimi institutlara malik olmaları bu xalqlara belə bir inkişaf səviyyəsinə çatmağa imkan yaratmışdır. Zənnimizcə, məhz bu iki institut Avropada inkişafa səbəb olan digər səmərəli institutların əsasını təşkil etmişdir. Əgər bu iki institut olmasaydı, iqtisadi inkişaf və bazar mexanizminin səmərəli fəaliyyəti üçün zəmin yaradan digər institutlar da meydana çıxmazdı və deməli, həmin iqtisadi artım, yüksək rifah baş verməzdi.

Müharibədən sonrakı dövrdə Almaniya iqtisadiyyatının dirçəlməsi və "alman iqtisadi möcüzəsi" ölkədə 1949-1969-cu illərdə hakimiyyətdə olmuş xristian-demokratların xidmətidir. Müharibədən sonra Almaniyada reallaşan iqtisadi islahatların memarı sosial bazar iqtisadiyyatının müəllifi professor Lüdviq Erxard (1897-1977) olmuşdur. O, Almaniya Federativ Respublikasının (AFR) xalq təsərrüfatı naziri (1949-1963), 1957-ci ildən federal kanslerin müavini və 1963-1966-cı illərdə AFR-in federal kansleri olmuşdur. Məhz onun birbaşa rəhbərliyi altında "alman iqtisadi möcüzəsi" baş vermişdir. XX əsrin 50-ci illərinin ortalarında ölkədə fasiləsiz iqtisadi artım başlamış və bu proses 60-cı illərin sonunadək davam etmişdir.

Yaxud götürək gündoğan ölkəni. İki atom bombası və İkinci Dünya müharibəsində məğlubiyyət nəticəsində viranəyə çevrilmiş Yaponiyanı bu fəlakətli vəziyyətdən imperator Mutsuxito xilas etmişdir. Onun öz komandası ilə birgə apardığı islahatlar Yaponiyanı dünya miqyaslı bir iqtisadi gücə çevirmişdir. "Yapon möcüzəsi" 1950-ci ildən başlayaraq 1973-cü ildəki böhranadək davam edən və ölkə iqtisadiyyatında rekord artımla müşayiət olunan tarixi bir fenomendir. Bu dövrdə hər il, demək olar ki, 10 faiz təşkil edən iqtisadi artım o illər inkişaf etmiş ölkələr arasında ən yüksək göstərici idi. Çox sürətli iqtisadi artım tempi ilə Yaponiya öz iqtisadi gücünə görə dünyada ikinci yerə çıxmışdır. O, Fransa, İtaliya, Kanada, Böyük Britaniya, AFR, SSRİ kimi ölkələri ötüb keçmiş və yalnız ABŞ-dan geri qalmışdır. Yaponiya iqtisadiyyatı 1968-ci ildən 2010-cu iləddək dünyanın ikinci iqtisadiyyatı hesab olunurdu. Yalnız 2010-cu ildən sonra bu rolu Çin oynamağa başlamışdır.

Cənubi Koreyaya gəldikdə, bu ölkənin iqtisadiyyatı 2011-ci ildə ÜDM-in həcminə görə (alıcılıq qabiliyyəti pariteti üzrə) dünyada 12-ci yerdə olmuşdur. Adambaşına düşən ÜDM 1963-cü ildəki 100 dollardan 2011-ci ildə 31000 dollara çatmışdır. Bu uğurların bünövrəsi 1961-ci ildə general Pak Çonxinin hakimiyyətə gəlişindən sonra qoyulmuşdur. Onun öz xalqı qarşısında əsas xidməti Cənubi Koreyanı geridə qalmış aqrar ölkədən müasir sənaye ölkəsinə çevirmək olmuşdur. General Pak belə hesab edirdi ki, iqtisadi inkişafda əsas rolu mərkəzi idarəetmə oynamalıdır.

Məlumdur ki, dünya ölkələri iqtisadi inkişaf səviyyəsinə görə üç qrupa bölünür: inkişaf etmiş, inkişaf edən və geridə qalan. Bu bölgü məntiqi olaraq belə bir sual doğurur: görəsən, geridə qalmış ölkələrdə yaranan vəziyyətdən çıxış yolu nədir? Doğrudanmı dünyanın bəzi xalqları iqtisadi inkişafa, yüksək həyat standartlarına, firavan yaşayışa, digər əksəriyyət isə aclığa, səfalətə, yoxsulluğa, məhrumiyyətlərə məhkum olunmuşlar? Bu xalqların ağır vəziyyətə düşməsinin əsas səbəbi, görəsən, nədir?

Neoklassik nəzəriyyələrdə iqtisadi inkişafın səbəbi kimi investisiya, insan kapitalı, təhsil və s. amillər göstərilir. Lakin institusionalist alimlər sübut etmişlər ki, neoklassiklərin göstərdikləri bu amillər iqtisadi inkişafın səbəbləri deyil, iqtisadi inkişafın özüdür, onun nəticəsidir.

İnkişafdan geri qalmaq kimi bir problem keçmiş SSRİ-nin tərkibinə daxil olmuş əksər respublikalarda da mövcuddur. Məlum olduğu kimi, SSRİ dağıldıqdan sonra bu məkanda baş verən bir çox prosesləri əvvəlcədən proqnozlaşdırmaq mümkün deyildi. Dünyanın iqtisadi tarixində baş vermiş ən dəhşətli iqtisadi böhranların biri keçmiş SSRİ-də baş verdi, onların təsərrüfat həyatına öz zərərli təsirinin miqyasına görə SSRİ-nin dağılması nəticəsində vurulan zərərlə müqayisə edilə bilməz. Bu sistem transformasiyası tarixdə nadir hallarda rast gəlinən bir fenomen olduğu üçün onun təsiri də keçmiş ittifaq respublikaları üçün çox sarsıdıcı və acınacaqlı idi. Ona görə də keçmiş ittifaq respublikalarının SSRİ-nin süqutundan sonra keçən 28 ildə hələ də ciddi bir inkişafa nail ola bilməmələri öz aktuallığını saxlamaqdadır.

Onu da unutmaq olmaz ki, SSRİ-nin, ümumiyyətlə, sosializm düşərgəsinin dağılmasından sonrakı illərdə böyük güc mərkəzləri arasında dünyanın yenidən bölgüsü uğrunda amansız mübarizə gedirdi. Həmin proses bu gün də davam edir. Hər bir güc mərkəzi ortaya müəyyən bir ideya atmaqla insanları öz tərəfinə çəkib rəqiblərinə qarşı istifadə edir. Böyük dövlətlərin ortaya atdığı demokratiya, insan haqları, mətbuat və söz azadlığı kimi ideyalar əslində zəif dövlətlərin daxili işlərinə qarışmaq üçün bir vasitə, bəhanədir. Sözsüz ki, bu cür institutlar, "oyun qaydaları" iqtisadiyyata da təsirsiz ötüşmür.

Əlbəttə, demokratiya, insan haqları, mətbuat və söz azadlığı kimi institutlar, yəni dünyaya sırınmış "oyun qaydaları" öz həqiqi mahiyyətinə uyğun, səmimi olaraq tətbiq edilsəydi, onda buna yalnız sevinmək olardı. Əgər bu ölkələr öz ərazilərində hökm sürən demokratiya, insan haqları, söz və mətbuat azadlığı kimi "oyun qaydaları"nın yenicə müstəqillik qazanmış, geridə qalmış dövlətlərdə bərqərar olmasına səmimiyyətlə yanaşsaydılar, bu istiqamətdə onlara kömək etsəydilər, onda onlara inam və etibar da yüksək olardı. Lakin hadisə və proseslərin gedişi göstərir ki, məsələ heç də belə deyil. Hazırda Yaxın Şərqdə, o cümlədən ərəb ölkələrində təsir sferaları, bölgənin təbii resurslarına sahib olmaq uğrunda gedən vətəndaş müharibələri, qanlı toqquşmalar, terror hadisələri, indiki MDB ərazisində mövcud olan etnik münaqişələr, demokratiya adı altında dünyanın digər qitələrində baş verən vətəndaş və etnik qarşıdurmalar məhz böyük dövlətlərin, beynəlxalq güc mərkəzlərinin dünyaya sırıdığı həmin üzdəniraq "oyun qaydaları"nın nəticələridir. Bütün bu proseslər həmin ölkələrə öz iqtisadiyyatlarını qurmağa, gələcəkdə sakit, dinc, firavan yaşamağa imkan vermir.

Dünyanı idarə edən güc mərkəzlərinin müxtəlif ölkələrə tətbiq etdikləri yanaşmalar siyasətdə məşhur olan "ikili standartlar" tipli "oyun qaydaları"na əsaslanır. Bu tip siyasət yürüdən həmin dövlətlərin əlində güclü iqtisadiyyatdan əlavə güclü və modern ordu kimi bir institut da var. Müstəqilliyi təzə qazanmış və münaqişəli vəziyyətdə olan ölkələrdə müəyyən vasitələrlə bəzi insanları öz adamlarına, əlaltılarına çevirərək onları hakimiyyətə gətirmək, daha sonra həmin insanların əli ilə öz iqtisadi və siyasi məqsədlərini reallaşdırmaq istəyən böyük dövlətləri heç vaxt digər xalqların yüksək həyat səviyyəsi, iqtisadi inkişafı, firavan yaşayışı maraqlandırmır. Hakimiyyətə gətirdikləri insanlar isə xalqın, dövlətin malik olduğu təbii sərvətləri dəyər-dəyməzinə, su qiymətinə topdan və pərakəndə şəkildə sağa- sola satmaqla məşğul olurlar.

Təəssüflər olsun ki, dünyada və keçmiş SSRİ məkanında baş verən bu hadisələr Azərbaycandan da yan ötməmişdir. 90-cı illərin əvvəllərində ölkəmizdə baş verən hadisələr, xaos, kriminogen vəziyyət, iqtisadi tənəzzül, az qala vətəndaş müharibəsinə gətirib çıxaran qarşıdurmalar, ictimai-siyasi qeyri-sabitlik, dünyanın böyük güc mərkəzləri tərəfindən "demokratiya", "insan haqları" kimi müxtəlif bəhanələrlə ölkəmizə edilən təzyiqlər və s. heç kimin yaddaşından silinməmişdir.

Yalnız xalqımızın böyük oğlu, ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bütün bu neqativ proseslərin qarşısına sipər çəkilmişdir. Başqa ölkələrə, o cümlədən Azərbaycana münasibətdə də tətbiq edilən "ikili standartlar" "oyun qaydaları"na qarşı Heydər Əliyev öz siyasi doktrinasını, müəllifi olduğu balanslı siyasət konsepsiyasını ortaya qoymuşdur. Məhz onun gücü, sarsılmaz siyasi iradəsinin, təkrarsız liderlik keyfiyyətlərinin, sağlam, analitik düşüncəsinin və siyasi uzaqgörənliyinin nəticəsi idi ki, dövlətimizə edilən təzyiqlərə, qoyulan maneələrə baxmayaraq, bu gün ölkəmiz dinamik iqtisadi inkişaf yolunda inamla addımlayır. Vaxtilə Heydər Əliyevin bütün sahələrdə, o cümlədən iqtisadiyyatda apardığı islahatlar bu gün öz bəhrəsini verir. ÜDM-in, orta aylıq əməkhaqqının, dövlət büdcəsinin, məşğulluğun, büdcədən sosial məqsədlərə ayrılan vəsaitlərin illik bir neçə dəfə artırılması məhz ulu öndərin qoyduğu iqtisadi təməlin nəticəsidir. Heydər Əliyevin titanik səyləri sayəsində 1994-cü ildə imazalanan "Əsrin müqaviləsi" nəticəsində qoyulan ovaxtkı investisiyanın multiplikativ effekti ölkə iqtisadiyyatına bu gün də öz təsirini köklü şəkildə göstərir. Burada hər hansı bir rəqəmi, statistik məlumatı göstərməyə heç bir lüzum, ehtiyac yoxdur, bu məlumatlarla hamı tanışdır.

Heydər Əliyevin qoyduğu bu ənənəni səmərəli şəkildə davam etdirən Prezident İlham Əliyev yeni uğurlara imza atmaqla ölkənin iqtisadi inkişafının bir mərhələsini sona çatdıraraq növbəti mərhələyə keçmişdir. Onun dövlət başçısı seçildiyi vaxtdan indiyə qədər ölkə iqtisadiyyatı bir neçə dəfə böyümüşdür. Son 2-3 ildə aparılan iqtisadi islahatlar, qəbul edilən qanun və qərarlar, imzalanan fərman və sərəncamlar ölkəmizin qeyri-neft sektorunun inkişafına, ixrac potensialının artmasına, daxili istehsalçıların dünya bazarına çıxmasına, orada pay sahibinə çevrilməsinə və Azərbaycana xarici valyuta axınının təmin edilməsinə, ümumiyyətlə, iqtisadiyyatımızın həcminin böyüməsinə, vətəndaşların gəlirlərinin və məşğulluğun artmasına, sosial problemlərin həllinə gətirib çıxarmışdır. Cənubi Qafqazda beynəlxalq infrastruktur layihələrinin reallaşdırılması ölkəmizin iqtisadi qüdrətinin yüksəlməsində, onun beynəlxalq arenada siyasi çəkisinin artmasında, regionda bütün məsələlərdə söz sahibinə çevrilməsində böyük rol oynamışdır. Ölkəmiz və xalqımız artıq yürüdülən iqtisadi siyasətin, aparılan iqtisadi islahatların bəhrəsini görməkdədir.

Lakin həmin layihələri reallaşdırılmaq asan başa gəlməmişdir. Bu məsələlərin həllində Azərbaycana rəqib olan dövlətlərin yaratdıqları maneələr, edilən təzyiqlər, ölkəmizin iqtisadi inkişafını istəməyən bəzi güc mərkəzləri həmin layihələrin reallaşdırılmasını bir qədər ləngitsələr də, ölkə başçısı İlham Əliyevin qətiyyəti, sarsılmaz polad iradəsi qarşısında geri çəkilməyə məcbur olmuşlar. Prezidentimizin heç bir təzyiqdən çəkinməyərək öz mübarizəsilə hər bir gücə qarşı gördüyü işlərlə, siyasi etika çərçivəsində istifadə etdiyi "fənd"lərlə verdiyi cavablar həmin gücləri Azərbaycanla hesablaşmağa məcbur etmişdir. Bu cür taleyüklü, məsuliyyətli qərarların qəbulunda İlham Əliyevin siyasi iradəsi və liderlik keyfiyyətləri bir daha öz sözünü demişdir. Təəssüflər olsun ki, bu məsələyə dodaq büzənlər, əsassız tənqidlə yanaşanlar, qərəzli mövqedən çıxış edənlər də var. Lakin onlar bilməlidirlər ki, bu misilsiz işləri qərəzli, əsassız olaraq tənqid edənlər xalq və tarix qarşısında məsuliyyət daşıyırlar.

Bizim bu məsələyə toxunmağımızda əsas məqsəd təkcə Azərbaycanın son 25 ildə deyil, ümumiyyətlə inkişaf etmiş ölkələrin nail olduğu iqtisadi inkişafın fundamental səbəblərini elmi cəhətdən aşkar etməkdir. Elm, məlum olduğu kimi, heç kəsin istəyindən və iradəsindən asılı olmayan obyektiv reallığı, həqiqəti, gerçəkliyi aşkar və sübut edir. Dünyanın inkişaf etmiş ölkələrinin iqtisadi inkişafının tarixinin qısa təhlili də sübut edir ki, iqtisadi inkişafın fundamental səbəbləri "siyasi iradə" və "liderlik" institutlarıdır. AFR-də L.Erxardın, Yaponiyada imperatorun, Cənubi Koreyada general Pak Çonxinin, Tayvanda Çan Kayşinin, Sinqapurda Li Kvan Yunun öz xalqlarının həyatında oynadığı misilsiz rolu Azərbaycanda bugünkü iqtisadi inkişafın banisi Heydər Əliyev oynamışdır. İndi isə bu missiyanı Prezident İlham Əliyev uğurla davam etdirir.

Çox maraqlıdır, nəyə görə bu cür şəxsiyyətlər tarixin məhz kritik dönəmində meydana çıxırlar? Bu sualın yeganə cavabı var: tarixi zərurət. Həmin insanlar həmişə lazım olan anda lazım olan yerdə olurlar. Onlar öz sarsılmaz siyasi iradələri ilə rəhbəri olduqları dövlətin daxili işlərinə qarışmağa heç bir xarici gücə imkan vermirlər. Məhz buna görə deyə bilərik ki, inkişaf etmiş bütün ölkələrin inkişafının ən fundamental səbəbi "siyasi iradə" və "liderlik" institutlarıdır. Yuxarıda göstərilən ölkələrin, o cümlədən Azərbaycanın timsalında biz bir daha bunun şahidi oluruq.

***Nazim HÜSEYNOV,***
***iqtisad üzrə fəlsəfə doktoru***

# Bakıda üçüncü milli BMT modeli konfransının açılış mərasimi keçirilib

Aprelin 5-də Bakıda üçüncü milli BMT modeli konfransı (Milli MUN) işə başlayıb.

AZƏRTAC xəbər verir ki, konfransın açılış mərasimində çıxış edən gənclər və idman naziri Azad Rəhimov Prezident İlham Əliyevin yürütdüyü uğurlu strategiya nəticəsində bu gün Azərbaycanın beynəlxalq nüfuzunu daha da möhkəmləndirərək həm regional, həm də beynəlxalq səviyyədə bir sıra sahələrdə liderlik əldə etdiyini deyib. Bildirib ki, BMT modeli hərəkatı "Qlobal siyasi müzakirələrdə gənclərin fəal iştirakını dəstəkləmək üçün yeni platformaların yaradılması" layihəsi çərçivəsində formalaşıb. Konfrans Gənclər və İdman Nazirliyi ilə BMT-nin İnkişaf Proqramının birgə təşəbbüsü ilə reallaşdırılır.

Nazir qeyd edib ki, layihənin və tədbirin əsas məqsədi Azərbaycanda BMT modeli (MUN) hərəkatının institutlaşdırılması, ali təhsil müəssisələrində MUN klublarının təsis edilməsi və onları birləşdirəcək şəbəkəsinin yaradılmasıdır. Eyni zamanda, gənclərin qlobal siyasi müzakirələrdə fəallıqlarını dəstəkləmək üçün yeni platformaların yaradılması da tədbirin əsas hədəflərindəndir. Gənclər və İdman Nazirliyinin dəstəyi ilə 30 gənc dünyanın müxtəlif ölkələrində Milli MUN modeli çərçivəsində konfranslarda iştirak edib.

A.Rəhimov bildirib ki, əvvəllər Daşkəsəndə, Naxçıvanda, İsmayıllıda keçirilmiş BMT modeli üzrə konfranslar və yay məktəbləri region gənclərinin bu tədbirə qatılmalarında böyük rol oynayıb. Bu model gənclərə fərdi bilik və bacarıqlarını inkişaf etdirmələri üçün böyük dəstəkdir. Gənclər burada BMT ilə bağlı biliklərini artırmaq imkanı əldə edirlər. Konfransın davam edəcəyi növbəti üç gün ərzində gənclər aparılan müzakirələrdə və qaldırılan problemlərin həllində fəallıq göstərəcək, təkliflərini verəcəklər.

BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsinin vəzifəsini icra edən Alessandro Frakassetti çıxışında təmsil etdiyi qurumun ölkəmizlə bu sahədə altı il əvvəl başladığı əməkdaşlığın nəticəsində əldə olunan nailiyyətləri yüksək qiymətləndirib. O, Azərbaycanın müxtəlif regionlarından olan gənclərin də qatıldıqları konfransın gənclərin inkişafı, onların BMT-nin qurumları və üzv ölkələr haqqında, həmçinin müzakirəyə çıxarılan mövzular barədə biliklərini təkmilləşdirmək, eləcə də qlobal müzakirələrdə diplomat qismində iştirak edərək fikirlərini çatdırmaq və mövqelərini əsaslandırmaq baxımından mühüm əhəmiyyət daşıdığını bildirib. BMT nümayəndəsi layihə çərçivəsində 17 gənc səfirin seçilməsinin təqdirəlayiq olduğunu qeyd edib.

Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin baş məsləhətçisi İrfan Davudov çıxışında ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra qısa müddətdə ölkəmizdə bütün sahələrdə, o cümlədən gənclərin inkişafı sahəsində dövlət tərəfindən böyük işlərin görüldüyünü diqqətə çatdırıb: "Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyev çıxışlarında gənclər sahəsinə xüsusi diqqətini daim vurğulayır. Azərbaycan Prezidenti gənclərimizə dövlət tərəfindən yaradılan geniş imkanlardan istifadə edərək bilikli, savadlı və müasir texnologiyalardan yüksək səviyyədə istifadə etməyi bacaran vətənpərvər gənclər kimi yetişməyi tövsiyə edir".

U.Davudov bildirib ki, yer üzündə ən böyük və nüfuzlu beynəlxalq təşkilat olan BMT-də baş verən proseslər dünyanın gələcəyi üçün mühüm əhəmiyyət kəsb edir. Bugünkü gənclərimiz gələcəkdə həm BMT, həm də digər beynəlxalq təşkilatlarda Azərbaycanın maraqlarını müdafiə etməyə qadir və hər zaman hazır olmalıdırlar.

Təhsil nazirinin müavini Firudin Qurbanov güclü infrastrukturun yaradılmasının təhsil sahəsində uğurların əsasını təşkil edən amillərdən biri olduğunu qeyd edib. Müasir dövrdə bütün sosial-iqtisadi inkişaf meyillərinin kökündə insan amilinin dayandığını vurğulayan nazir müavini bildirib ki, məhz zəngin biliyi və təcrübəsi olan vətəndaşlar inkişaf etmiş ölkələrin ən mühüm sərvəti və insan kapitalı fondunu təşkil edir. Azərbaycanda insan kapitalının inkişafına dövlət tərəfindən böyük diqqət və qayğı göstərildiyini qeyd edən F.Qurbanov deyib: "Hökumət xarici ölkələrdə təhsil alan gənclərin sayının artırılması, onların tədris xərclərinin yüksəldilməsi ilə bağlı məqsədyönlü addımlar atır. Azərbaycanda 3 mindən çox məktəb istifadəyə verilib, təmir olunub, müasir texniki avadanlıqla təmin edilib. Təhsil sahəsində bir sıra mühüm dövlət proqramları qəbul edilib. 2007-2015-ci illəri əhatə edən Dövlət Proqramının qəbul edilməsi sayəsində 3558 gənc dünyanın ən qabaqcıl ali universitetlərində təhsil alıblar. Gənclərimiz müasir biliklərə malik, elmli gənclərdir və onlar dövlət və özəl qurumlarda uğurla çalışırlar".

Nazir müavini Azərbaycan Respublikası vətəndaşlarına aparıcı ölkələrin ali təhsil standartları çərçivəsində keyfiyyətli təhsil almaq imkanının yaradılması məqsədilə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın hazırlandığını və bu proqram sayəsində xaricdə doktoranturada təhsil alanların sayının artacağını bildirib. Belə mühüm konfransda gənclərimizin iştirakının əhəmiyyətini xüsusi qeyd edən F.Qurbanov BMT modelinin gənclərin bilik və bacarıqlarının inkişaf etdirilməsi baxımından mühüm platforma olduğunu deyib.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə bildirib ki, nazirlik bu layihənin başlandığı ilk gündən aidiyyəti qurumlarla birlikdə bu istiqamətdə sıx əməkdaşlıq edir. Nazirlik konfransda informasiya-kommunikasiya texnologiyalarına aid mövzuların müzakirəsinə fəal dəstək verir. Konfrans çərçivəsində təşkil olunan simulyasiya oyunları gənclərimizin dünyanı narahat edən problemləri yaxından dərk edərək, onların həlli ilə bağlı qərar vermək bacarıqlarının inkişafında vacib rol oynayır.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev müasir dövrdə ətraf mühit məsələlərinin bəşəriyyəti narahat edən başlıca problemlərdən olduğunu diqqətə çatdırıb. O, bu problemlərin həllinin bəşəriyyətin inkişafı üçün həyati əhəmiyyət kəsb etdiyini bildirib. Azərbaycanda bu sahəyə ciddi diqqət yetirildiyini, həmçinin təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə istifadə edildiyini deyən nazir müavini vurğulayıb: "İnsanların sağlam təbii mühitdə yaşaması üçün ölkəmizdə sosial-iqtisadi islahatlar ardıcıl davam etdirilir. Dövlətin diqqət və qayğısı sayəsində sosial, mədəni və digər sahələrin inkişafı ilə yanaşı, ətraf mühitin mühafizəsinə əhəmiyyət verilir. Reallaşdırılan ardıcıl tədbirlər nəticəsində ekoloji durum əhəmiyyətli dərəcədə yaxşılaşır".

Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Fərid Abdinbəyov çıxışında deyib ki, Azərbaycan gənclərin əhalinin çox hissəsini təşkil etməsinə görə Avropa ölkələri arasında ilk sıralardadır. Gənclərimizin keyfiyyətli təhsil alması və uğurlu karyera qurmasının daim dövlətin diqqət mərkəzində olduğunu bildirən F.Abdinbəyov onların idarəetmənin bütün sahələrində yaxından iştirak etdiklərini deyib. Tədbirin bu baxımdan çox faydalı olduğunu bildirən səfir qeyd edib ki, bu gün gənclərlə sıx işləməklə biz cəmiyyətimizi və dövlətimizin gələcəyini təmin etmiş oluruq. Mötəbər beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilən Bakı mədəniyyətlər və sivilizasiyalararası dialoqu təşviq edən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna, Ümumdünya Mədəniyyətlərarası Dialoq və Qlobal Bakı forumlarına uğurla evsahibliyi edib. Azərbaycanın mədəniyyətlərarası dialoqun təbliğində oynadığı rol BMT-nin baş katibi tərəfindən yüksək qiymətləndirilib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov da çıxışında ölkəmizdə gənclərin fəal rolundan danışıb. Qeyd edib ki, bu cür tədbirlərdə iştirak edən gənclər bir müddətdən sonra BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu qurumlarda ölkəmizi ləyaqətlə təmsil edirlər. O, gender bərabərliyi, insan hüquqları, ətraf mühitin qorunması və s. məsələlərin müzakirəsi baxımından tədbirin əhəmiyyətini xüsusi vurğulayıb.

Üç gün davam edəcək konfransın bütün iştirakçıları seçim, müsahibə və təlim mərhələlərindən keçiblər. Tədbirdə diplomat qismində 250 gənc iştirak edir. Konfrans çərçivəsində BMT-nin üç komitəsinin işi simulyasiya ediləcək. Belə ki, gənclər "BMT Təhlükəsizlik Şurası - Mərkəzi Afrika Respublikasındakı böhran", "BMT Qadınlar Təşkilatı (UNWOMEN) - Qadınlar və kişilər arasında bərabər ödəniş", BMT Baş Məclisi - Rəqəmsal vətəndaşlığa keçidin perspektivləri və BMT Ətraf Mühit Proqramı (UNEP) - Tekstil sənayesinin ətraf mühitə təsiri" mövzularında müzakirələr aparacaqlar.

# Heydər Əliyev Fondu Pakistanın Müzəffərabad şəhərindəki Rara qızlar məktəbinə hədiyyələr göndərib






Heydər Əliyev Fondu Pakistanın Müzəffərabad şəhərindəki Rara qızlar məktəbinə hədiyyələr göndərib. Azərbaycan Respublikasının Pakistandakı səfirliyinin nümayəndələri məktəbdə olaraq müxtəlif dərs ləvazimatları, o cümlədən məktəb üçün kompüter, printer, idman ləvazimatları və fondun müxtəlif nəşrlərini təqdim ediblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə mərasimdə çıxış edərək 2005-ci ildə Pakistanda baş vermiş zəlzələdən sonra dağılan məktəb binasının Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə fond tərəfindən inşa edildiyini və 2007-ci ildə istifadəyə verildiyini bildirib. Heydər Əliyev Fondunun Pakistanla əlaqələri daim diqqətdə saxladığı, fondun prezidenti Mehriban Əliyevanın Pakistanla əməkdaşlığa və əlaqələrə xüsusi önəm verdiyi vurğulanıb. Bu baxımdan ötən müddət ərzində Müzəffərabad şəhərindəki məktəb daim diqqətdə saxlanılıb, mütəmadi olaraq fond və səfirlik nümayəndələri məktəbdə olublar.

Heydər Əliyev Fondunun fəaliyyəti, onun təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif ölkələrdə, o cümlədən Pakistanda həyata keçirdiyi sosial və humanitar layihələr barədə məlumat verən səfir Müzəffərabad şəhərində 400 şagird yerlik Rara qızlar məktəbinin inşa edilməsinin bunun bir nümunəsi, həmçinin Azərbaycan-Pakistan dostluq və qardaşlıq əlaqələrinin təzahürü olduğunu bildirib.

Rara qızlar məktəbinin direktoru xanım Şirin Kadri və Kəşmirin təhsil üzrə direktoru məktəbin çətin və ehtiyac duyulan bir zamanda fond tərəfindən tikilib istifadəyə verildiyini və bu addımın yüksək qiymətləndirildiyini bildiriblər. Onlar təhsil üçün yaradılmış əlverişli şəraitə görə Azərbaycan dövlətinə, eyni zamanda, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya təşəkkür ediblər və şagirdlərin müxtəlif biliklərə yiyələnmələrində, tədris, təlim və tərbiyələrində məktəbin önəmli rolunun olduğunu diqqətə çatdırıblar.

Tədbir çərçivəsində Rara qızlar məktəbinin şagirdləri müxtəlif musiqili-mədəni səhnəciklər təqdim ediblər.




# "Bakı-2015"dən "Formula-1"dək...

## Paytaxtımız daha 5 il planetin sürət paytaxtı olacaq

*Əvvəli 1-ci səh.*

21-i qızıl, 15-i gümüş və 20-si bürünc olmaqla qazandığı 56 medalla Azərbaycan I Avropa Oyunlarının ikincisi oldu. Bir daha şahidi olduq ki, ölkəmizdə həyata keçirilən idman siyasəti öz bəhrəsini verir.

Azərbaycan 2017-ci ildə də ənənəsinə sadiq qaldı. Mayın 12-22-də paytaxtımız müsəlman aləminin idman mərkəzinə çevrildi. İslam dünyasının idman həyatı üçün əlamətdar olan “Bakı-2017” IV İslam Həmrəyliyi Oyunları çox böyük uğurla yekunlaşdı. 54 ölkədən 3000-dən çox idmançının iştirak etdiyi yarışlarda Azərbaycan atletləri 75-i qızıl, 50-si gümüş, 37-si bürünc olmaqla 162 medal qazanaraq birinci yeri tutdular. İslam dünyasının ən nüfuzlu idman yarışında iştirak edən atletlər, qonaqlar Azərbaycanla tanış oldular, ölkəmizin uğurlu inkişaf modelini növbəti dəfə gördülər.




### Planetin bir nömrəli avtomobil yarışı

“Formula-1” yarışları isə paytaxtımızda 2016-cı ildən keçirilməyə başlanılıb. Həmin ildə Avropa Qran-pri yarışlarının Bakı mərhələsi adlandırılan yarış iyunun 17-19-da təşkil olunmuşdu. “Formula-1”in Bakı mərhələsində tarixdə ilk dəfə 21 mərhələdən ibarət yeni mövsümdə 11 komanda və 13 fərqli ölkədən dünyanın ən məşhur pilotları birincilik uğrunda mübarizə aparıblar. Möhtəşəm yarışda dünya çempionu adını qazanmış 5 pilot iştirak etmişdi.

“Formula-1” üzrə dünya çempionatı birnəfərlik, açıq təkərli avtomobillərin yarışıdır. Yüksək statusa malik bu yarışlarda sürücülər pilot, avtomobillər isə bolid adlanır. İl ərzində müxtəlif ölkələrdə “F1” üzrə mərhələ yarışları, başqa sözlə, qran-prilər təşkil olunur. Dünyada geniş tamaşaçı auditoriyasına malik bu turnirlər izlənmə sayına görə yalnız yay olimpiya oyunlarından və futbol üzrə dünya çempionatından geri qalır. Daha çox sürət həvəskarlarının maraq dairəsində olan “Formula-1” qran-priləri ilk vaxtlar ancaq Avropa ölkələrində keçirilsə də, hazırda dünyanı əhatə edir. Yarışları FİA (Beynəlxalq Avtomobil Federasiyası) keçirir. 1904-cü ildə Parisdə yaradılan federasiya avtomobil idmanı üzrə təşkil olunan bütün növ yarış və tədbirlərə cavabdehdir.

“Formula-1” üzrə ilk rəsmi dünya çempionatı 1950-ci il mayın 13-də İngiltərənin Silverstoun trekində təşkil olunub. Britaniya kral ailəsinin də maraqla izlədiyi turnirdə 21 bolid qələbə uğrunda mübarizə aparıb. Həm təsnifat, həm də əsas mərhələdə finiş xəttinə birinci gələn “Alfa Romeo”nun italiyalı pilotu Cüzeppe Nino Farina “F1” yarışının ilk qalibi kimi tarixə düşüb. Birincilik uğrunda mübarizədə onun əsas rəqibi komanda yoldaşı, argentinalı Xuan Manuel Fanxio olub. Lakin sonralar X.M.Fanxio bu məğlubiyyətin əvəzini yetərincə çıxıb. Belə ki, o, karyerası ərzində 5 dəfə (1951-ci, 1954-cü, 1955-ci, 1956-cı və 1957-ci illərdə) dünya çempionu adını qazanmaqla rəqiblərinə aman verməyib.

### 68 ölkədən tamaşaçı yarışı tribunalardan izləyib

2017-ci ilin ən yaddaqalan idman turnirlərindən biri də iyunun 23-25-də Bakıda dünyanın ən nüfuzlu avtomobil yarışlarından olan “Formula-1” Azərbaycan Qran-prisinin keçirilməsi idi. Prezident İlham Əliyevin yüksək dəstəyi ilə ikinci dəfə baş tutan dünya çempionatının 8-ci mərhələsi olan Azərbaycan Qran-prisində ən məşhur 20 pilot 10 komandanın tərkibində 6 kilometr məsafədən ibarət 51 dövrəlik mərhələnin qalibi uğrunda yarışdı. Gərgin keçən mübarizə sürət həvəskarlarının böyük marağına səbəb oldu. 500 milyondan artıq tamaşaçı bu yarışı izlədi. 57 ölkədən çoxlu sayda azarkeş paytaxtımızda tribunalardan canlı olaraq yarışa baxdı.

Ötən il aprelin 27-29-da Bakı planetin bir nömrəli avtomobil yarışına sayca 3-cü dəfə evsahibliyi etdi. Bu dəfə Azərbaycan Qran-prisində ən məşhur 20 pilot 10 komandanın tərkibində yarışdı. Gərgin keçən mübarizə sürət həvəskarlarının böyük marağına səbəb oldu. 500 milyondan artıq tamaşaçı kütləsinə malik yarışı 68 ölkədən çoxlu sayda azarkeş paytaxtımızda tribunalardan izlədi.

### Bakıdakı yenilik marağı bir qədər də artırıb

“Formula-1” yarışlarının cari mövsümdə 4-cü mərhələsinə evsahibliyi edəcək Azərbaycan 3 il öncə dünya çempionatının Bakı mərhələsində yenilik tətbiq etmişdi.

Bu, sıralama turları ilə bağlıdır. Əvvəlki qaydalara görə, 18 dəqiqə davam edən birinci və 15 dəqiqəlik ikinci seansların nəticələrinə əsasən ən pis nəticə göstərən 6 pilot mübarizədən kənarlaşdırılırdı. 10 pilot isə 12 dəqiqəlik üçüncü seansdakı göstəricilərə görə yarışa start verirdi.

Yeni qaydalarda isə seansın sonunda yox, hər 90 saniyədən bir ən yavaş pilotun mübarizəni dayandırması nəzərdə tutulub. “Formula-1” mütəxəssislərinin rəyinə görə, bu yenilik həyəcanı bir qədər də artırıb.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***



# Sağlıq olsun

# İnadkar mərəz

## Həkim məsləhəti

**Son dövrlər insanlar arasında allergiya halları artıb. Hətta mübaliğəsiz demək olar ki, doğulan körpələrin böyük əksəriyyəti allergiyadan əziyyət çəkir. Bir çox hallarda allergiyanı törədən səbəblər barədə məlumatsızlıqdan bu hal daha da ağırlaşır və arzuolunmaz nəticələrə gətirib çıxarır. Hətta allergik qıcolmadan və anafilaktik şokdan dünyasını dəyişənlər də olur.**



Allerqoloq Nahid Məhərrəmov bildirir ki, allergiya adətən immun sisteminin zəifləməsi nəticəsində yaranır. Allergiya bəzi heyvanların tükünə, müxtəlif məhsullara, toza, dərmanlara, kimyəvi maddələrə, həşərat sancmasına və bitki tozcuğuna qarşı yarana bilir: “Bəzi hallarda allergik reaksiyalar o qədər zəif təzahür edir ki, hətta siz özünüz də allergiya olduğunuzdan bixəbər ola bilərsiniz”.

Allerqoloq xəbərdarlıq edir ki, allergiyaya düçar olan insanlarda anafilaktik şok əmələ gələ bilər. Bu, orqanizmin allergenə qarşı yaranan son dərəcə kəskin reaksiyası olan ağır patoloji vəziyyətdir. Anafilaktik şok müxtəlif allergenlərdən törəyə bilər: dərman preparatlarından, həşəratların sancmasından, qida məhsullarından.

İnsan hər hansı bir məhsulu təhlükəli hesab edəndə isə qida allergiyası yaranır. Bu halda orqanizm özünü qorumaq üçün immun sistemini anticisimlər istehsal etməyə məcbur edir. Allergen bədənə təkrar daxil olduğu halda immun sistemi o maddəni tez tanıyır və yenidən anticisimlər istehsal etməklə dərhal reaksiya verir. Məhz elə bu maddələr allergik simptomlar yaradır.

### Qurtulmaq mümkündür

Heyvanların qalın və quşların narın tükləri, toz, qida məhsulları, kosmetika, dərman preparatları, bitki tozcuqları, həmçinin siqaret tüstüsü də allergiya yaradan səbəblərdəndir. Əlamətlər allergik zökəm, astma, qızarmış və yaşaran gözlər, oynaqlarda ağrı və iltihab, ishal, qusma, mədə pozulması kimi özünü büruzə verir.

Ağırlaşma halları isə anafilaktik şok, çətinləşmiş, yaxud xışıltılı nəfəs, nəbzin sürətlənməsi, soyuq tər, yapışqan dəri, mədə spazmları, başgicəllənmələr, ürəkbulanma, kollaps (kəskin damar çatışmazlığı), qıcolmalardır. Tibbi yardım göstərilməyəndə ağır allergiya ölümlə nəticələnə bilər.

Həkim məsləhət görür ki, allergiyalı şəxs özündə olan bu halla bağlı dostlarına, qohumlarına, iş yoldaşlarına, həkimlərə, kosmetoloqlara məlumat verməlidir. Əsasən də tibbi preparatlara qarşı olan allergiyalar zamanı həkimə müraciət edilməlidir. Allergik zökəmin yüngül formalarında simptomları aradan qaldırmaq üçün axmaya qarşı damcılardan və spreylərdən istifadə edilə bilər. Əgər allergiya tibbi preparatdan yaranıbsa, dərhal onun qəbulunu dayandırmaq və həkimlə məsləhətləşmək lazımdır: “Allergiya yaradan maddələri müəyyən etməyə çalışın və onlardan hər zaman qaçın. Evinizin təmiz olmasına, toz, narın tükcüklər və gənə olmamasına nəzarət edin. Evi süpürəndə, yaxud tozsoranlayanda, mebellərinizi təmizləyəndə, yataq dəstini dəyişəndə, tozlu əşyalarla hər hansı təmasda burnunuzu tənzif və ya adi maskayla bağlayın. Ev heyvanlarına qarşı allergiya olduqda, onları evinizdə saxlamayın”.

Həkim onu da vurğuladı ki, allergiyadan birdəfələik yaxa qurtarmaq mümkündür: “Bunun üçün immun sistemini normallaşdırmaq lazımdır. Bu isə ancaq idman etməklə mümkündür. Bu zaman orqanizm təbii yolla güclənir. Allergiyanın asmatik prosesə çevrilməməsi üçünsə zamanında onu müalicə etmək lazımdır”.

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

## Bilirik?

- Rus-yapon müharibəsi dövründə yapon əsgərləri çantalarında içərisində Azərbaycanın indiki Naftalan şəhərində çıxarılan neftdən hazırlanmış naftalan məlhəmi olan kiçik qablar gəzdiriblər. Həmin qabların üzərində qısa, lakin çox ümidverici bir yazı olub: “Kimdə bu məlhəm varsa, o heç bir yaradan qorxmasın”;
- İnsanların bir çoxu kor bağırsaq çıxıntısının orqanizm üçün artıq bir orqan olduğunu düşünür. Amma kor bağırsaq çıxıntısı insan bağırsağı üçün vacib sayılan mikroorqanizmlərin artıb çoxalması üçün vacib orqan hesab edilir;
- qadınlarda ürəyin çəkisi kişilərə nisbətən az olur;
- insanın skeleti təxminən 206 sümükdən ibarətdir;
- dalağın uzunluğu normada 13 sm, çəkisi isə 200 qr olur. Müxtəlif xəstəliklərə görə böyümüş dalağın çəkisi hətta 2 kq çata bilər. Dalağın əsas vəzifəsi qanı təmizləməkdən ibarətdir;
- ətraf mühitdən qəbul etdiyimiz məlumatların 90 faizini biz göz vasitəsilə alırıq;
- dad və iybilmə qabiliyyətləri bir-biri ilə çox əlaqəlidir. Məhz bu səbəbdən burnumuz tutulduqda təkcə yeməklərin qoxusunu yox, həmçinin dadını da hiss etmirik.



## Şəfalı bitkilər

# Yeddi dərdin bir dərmanı

**Kəklikotunun faydalı və müalicəvi xüsusiyyətləri insanlara qədim zamanlardan məlumdur. Bu ot xalq təbabətində müxtəlif xəstəliklərin müalicəsində istifadə olunur.**

1. Kəklikotu çayı spazmla (sıxılma) bağlı olan ağrıları (başağrısı, bağırsaq spazmı və s.) azaldır.
2. Ağız boşluğu iltihabları, angina zamanı kəklikotudan qarqara üçün istifadə olunur. 1 xörək qaşığı ot 1 stəkan qaynar suda dəmlənir, 20 dəqiqədən sonra süzülür və hər 2 saatdan bir qarqara üçün istifadə olunur.
3. Kəklikotu respirator xəstəliklər (öskürək, bronxit və s.) zamanı nəfəs yollarında yığılan bəlğəmi durulaşdırır və onun çıxmasını asanlaşdırır.
4. Kəklikotu bağırsaqlarda yaşayan ziyanlı mikroorqanizmləri yox edir, qurdqovucu təsir edir, həzmi yaxşılaşdırır.
5. Kəklikotu sistit zamanı yaxşı kömək edir.
6. Prostatitin müalicəsində istifadə olunur.
7. Kəklikotu sakitləşdirici təsir edir, stress, nevrasteniya, nevroz zamanı kömək edir.

## Sağlam qida

# Kalsium deposu

**Süd və süd məhsullarının insan orqanizmi üçün əvəzsiz olduğu məlumdur. Xüsusilə də kefirin faydalarını saymaqla bitmir.**




Kefir həzmə kömək edir, bağırsaq florasını tənzimləyir. Qidaların həzm edilməsinə yardımçı olur. Bağırsaqlarda faydalı mikroorqanizmlər azaldığında ishal, qəbizlik, udma pozuqluqları yaranır. Kefir tərkibindəki təbii mikroorqanizmlərlə bu problemlərin qarşısını almağa kömək edir. Həmçinin immuniteti gücləndirir, betakaroten olan tərkibi ilə immunitet sistemini dəstəkləyir, bədəndə yığılan toksin maddələrin törəməsini önləyərək, immunitet sistemini gücsüzləşdirən mikroorqanizmləri məhv edir.

Tərkibindəki yüksək miqdarda kalsiumla sümüklərin inkişafını dəstəkləyən kefir, böyümə dövründəki uşaqlara və yaşlıların artan kalsium ehtiyacına dəstək verir. Gün ərzində 2 stəkan kefir içmək gündəlik kalsium ehtiyacının təxminən yüzdə 60 faizini təmin etmiş olur. Zəngin E vitamini və selenium tərkibi sayəsində kefir güclü bir antioksidantdır. Hüceyrə parçalanmasına səbəb olan toksin maddələrin meydana gəlməsini və törəməsinin qarşısını alaraq hüceyrə yenilənməsinə köməkçi olur.

Kefir də digər probiotiklər kimi, zülal və yağların asan həzm edilməsinə imkan verir. Aşağı qlisemik indeksi ilə zülalla birlikdə mədədə uzun müddət qalaraq toxluq hissi yaradır və qan şəkərinin daha gec yüksəlməsini təmin edir.

Süd turşusu fermentasiya səbəbindən həzmi asanlaşdıraraq, mədədə yaranan köpü aradan qaldırır. İçindəki triptofan aminturşu və B vitamini sayəsində sinirləri sakitləşdirir, depressiyanı azaldır, yuxusuzluğu aradan qaldırır.

## Xalq təbabəti

# Banka qoyaq, qoymayaq?

**Soyuqdəymə zamanı xalq arasında tətbiq olunan alternativ tibbin ən üzdə olanı banka qoymaqdır. Hesab olunur ki, banka qoyulan yerdə nə qədər çox tünd qan yığılarsa, deməli, bu nahiyə daha çox soyuqlayıb. Həmin yeri hacamat deyilən xüsusi bir alətlə çərtib, yığılan qanı çıxarırlar.**

Həkimlər isə banka qoymağın sanıldığı kimi faydalı olmadığını bildirirlər.



### Ölmüş qanla yüklənən qaraciyər

Fizioterapevt Zaur Əliyevin sözlərinə əsasən, banka qoymaq insan orqanizmi üçün çox zərərlidir. Əvvəllər onurğa həkimi olmadığından soyuqdəymə, qulunc kimi problemlər yarananda insanların şəfa tapması üçün banka qoyulması üsulundan istifadə edilirdi: “Belə ki, həmin dövrdə banka qoyulan yeri çərtib, toplanmış qara qanı çıxarırdılar. Çünki banka qoyulduqdan sonra onun yerində yaranmış qan - toxuma ölür. Həmin qan sonra yavaş-yavaş sovrulur və qaraciyərin yüklənməsinə gətirib çıxarır. Qaraciyər də orqanizmə təzə qan vermək üçün həmin ölmüş qanı özünə çəkir”.

Həkim banka qoyulduqdan sonra insanlarda bu orqanla bağlı şikayətlərin yarandığını bildirib: “İnsanlar qaraciyərlərinin ağrıması, şişməsi, serroz problemlərindən şikayətlənirlər. Qaraciyərin xəstəliklərini yaradan amillərdən biri də banka qoyulması, ölmüş qanla yüklənməsidir. Ona görə də dünyada hacamat yığışdırılır”.

### Bu, xəstəliklərin inkişafına rəvac verir

Pediatr Vaqif Qarayev isə söyləyir ki, adi burun tutulmasında da, bel ağrısında da, topuq ağrıyanda da banka qoyulur: “Burada psixoloji inanmaq var. Bəzən baxırsan ki, bel nahiyəsinə başdan-başa banka qoydururlar. Tutaq ki, soyuqdəymə varsa, onu niyə təkcə bel nahiyəsinə qoyurlar?”

Mütəxəssis banka qoymağın müəyyən müsbət təsiri olmasının tibbi izahını belə verir: “Banka dərini qıcıqlandırır və qan dövranını yaxşılaşdırır. Buna görə də əzələ, sinir ağrılarına kömək edə bilir. Amma bronxitlərə, pnevmaniyalara təsir edib sağaldacaq bir qüvvəyə malik deyil. Əksinə, bankaların istifadəsi pnevmaniya zamanı təhlükəlidir və xəstədə pnevmotoraks (ağciyərin toxumasının yırtılması) inkişaf edə bilər. Həmçinin kəskin traxeit, laringit, kəskin və xroniki bronxit xəstəlikləri zamanı bu üsuldan istifadə qəti qadağandır. Bankalar müxtəlif şişlər (xoş və bədxassəli) üçün də təhlükəli sayılır. Onun qoyulması bu şişlərin inkişafına təkan verə bilər. Müxtəlif dermatitlər (dəri iltihabları), dəri infeksiyaları, dəri travmaları zamanı da banka qoyulması fəsadlar yaradır. Ürəyində problem və qan təzyiqi yüksək olan insanlara da qətiyyən banka qoymaq olmaz”.

Həkim xəbərdarlıq edir ki, xüsusilə uşaqlara banka qoymaq düz deyil: “Soyuqdəymənin kəskin vaxtı, hərarət yüksələndə banka qoymaq olmaz. Bu, uşaqların vəziyyətini daha da ağırlaşdıracaq. 2 yaşından aşağı uşaqlara isə ümumiyyətlə banka qoyulmamalıdır. O cümlədən bronxial astması, dərisində problem, allergik narahatlığı olan uşaqlara da bu üsul qadağandır”.

## Musiqi xadimləri

# Bitməmiş simfoniya



Gəncliyinin arzularla coşub-çağlayan çağlarındaydı. Çoxlarının hələ təhsil aldığı, şöhrətlənmək, tanınmaq ümidində olduğu yaşda o, Azərbaycan musiqi sənətinə yeniliklər gətirmiş, bir sıra ilklərə imza atmış bəstəkar kimi ad-san qazanmışdı. Professonal musiqi təhsilli ilk bəstəkarımız idi. Dram əsərlərinə musiqiləri də ilk olaraq o bəstələmişdi. Milli romans janrının əsasını qoymuşdu. Sevilən romansların, uşaq mahnılarının, simfonik, kamera-vokal və instrumental əsərlərin müəllifiydi. Yaradıcılığında xalq mahnılarının toplanmasına, nota salınmasına və işlənməsinə geniş yer verirdi. Milli musiqimizin təbliğatçısı kimi də fəal idi. "Uşaq süitası" əsəri ilə Azərbaycan musiqi tarixində uşaq musiqisi repertuarının əsasını qoymuşdu. Və bunlar o həyatdolu, sevgidolu, istedadlı gəncin iyirmi üç yaşınadək gördüyü işlərin hələ hamısı deyildi...

### Üzeyir bəyin yetirməsi...

1909-cu ilin aprelində Dərbənddə dünyaya göz açmışdı Asəf Zeynallı. Atası Zeynalabdin bağban idi. O vəfat edəndə Asəf bir yaşındaydı. Üç qardaşın ən kiçiyi idi. Atalarından sonra onların qəhrini çəkən, qayğılarına qalan anaları Həsbəndə xanım oldu. O, toxucu işləyir, ailəni çətinliklə dolandırırdı. Maddi vəziyyətləri ürəkaçan olmasa da, gələcəyə ümidliydilər. Zeynallılar ocağından tez-tez musiqi səsi gəlirdi. Həsbəndə xanım qarmonda çox sevdiyi xalq musiqilərini ifa edirdi. Bəlkə Asəfin heyranlığı da ilk olaraq həmin musiqilərdən yarandı...

Fədakar ana övladlarının təhsilinə böyük diqqət göstərirdi. Sonbeşiyini - Asəfi də yeddi yaşında Dərbənd şəhərindəki realnı gimnaziyaya apardı. Gimnaziyada nəfəsli orkestrin olması balaca Asəfi sevindirdi. Çox keçmədi ki, o da həmin orkestrin klarnet ifaçısı oldu. Gimnaziyada həm də dərslərini yaxşı oxuması, fəallığı ilə seçildi.

Həsbəndə xanım 1920-ci ildə Dərbənddən Bakıya köçməyi qərara aldı. O vaxt Asəfin on bir yaşı vardı. Burada doqquzillik məktəbdə dərs almağa və Qarayev adına hərbi məktəbin nəzdindəki nəfəsli orkestrdə klarnetdə ifa etməyə başladı. Öz yolunu müəyyənləşdirmişdi: musiqiçi olacaqdı. Bu arzuyla 1923-cü ildə musiqi məktəbinə daxil oldu. Dahi bəstəkar Üzeyir Hacıbəyli sonralar yazırdı: "Aprel inqilabından sonra xüsusi türk musiqi məktəbi açıldı. Mənə türk qadınlarının kişilərlə birlikdə təhsil alması məsələsini bütün məktəblər içərisində birinci olaraq həll edən həmin musiqi məktəbini idarə etmək şərəfi nəsib olmuşdu. Türklər bu məktəbə axın-axın gəlirdi. Binanın darısqal olmasına baxmayaraq, burada 500-dən çox şagird oxuyurdu. Məktəbin ilk şagirdlərindən biri də mərhum Asəf Zeynallı idi. O, truba sinfinə qəbul olunmuşdu".

Zəhmətsevərliyi, bacarığı, inadkarlığı sayəsində trubada mükəmməl çalmağı öyrəndi. Musiqi məktəbinin rəhbərliyi tərəfindən işçi klublarında təşkil olunan konsertdə çıxış etdi. İlk musiqi əsərini də o vaxtlar - 1923-cü ildə yazdı. "Truba üçün marş" adlı bu əsərini elə həmin il təşkil olunan konsertlərin birində özü ifa etdi. Sonralar onu musiqi məktəbinin violonçel sinfinə keçirdilər. Violonçel müəllimi professor Okorokov oldu. O zaman Asəf Zeynallı həm də fortepianoda ifa etməyi bacarırdı. Bir müddət sonra müəllimləri onu fortepiano sinfinə keçirdilər və bu dəfə pedaqoq N.V.Jenetskoydan dərs almağa başladı.

...1925-ci il idi. Türk Musiqi Məktəbinin tələbələri öz sevimli müəllimləri Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasını tamaşaya qoydular. Bundan sonra Türk Musiqi Məktəbi Türk Musiqi Texnikumuna çevrildi. 1926-cı ildə isə həmin texnikum Azərbaycan SSR Xalq Maarif Komissarlığının qərarı ilə konservatoriya ilə birləşdirildi. Asəf Zeynallı konservatoriya müəllimlərinin qarşısında uğurla imtahan verərək professor B.V.Karakuçevin kontrapunkt sinfinə qəbul olundu. Bu dəfə kompozisiya nəzəriyyəsi ixtisası üzrə təhsil almağa başladı. O, Üzeyir Hacıbəylinin Azərbaycan xalq musiqisinin əsaslarının öyrənilməsi sinfinə də böyük həfəslə gedirdi. Üzeyir bəyin rəhbərliyi ilə Azərbaycan xalq musiqisinin əsaslarını dərindən öyrənirdi.

### Həm tələbə, həm müəllim...

...1930-cu il Asəf Zeynallı ömrünə belə gəldi. Hələ konservatoriyada təhsilini davam etdirsə də, tələbə adını daşısa da, artıq sənətkarlar arsında hörməti, nüfuzu var idi. Bunları ona istedadı, yazdığı dəyərli əsərləri qazandırmışdı. Bəstəkar kimi yetişməsində böyük rol oynayan Üzeyir Hacıbəyli başda olmaqla o illərin məhur sənətkarları Asəf Zeynallıya ümidlə baxırdılar. Onun simasında Azərbaycanın gələcək böyük musiqiçisini, əvəzolunmaz bəstəkarını görürdülər.

O il bu bacarıqlı tələbə Türk İşçi Teatrına musiqi rəhbəri təyin olundu. Asəf Zeynallı yenə əvvəlki səylə konservatoriyada oxumaqla bərabər, yeni işində çalışırdı. Türk İşçi Teatrında "Hind qızı", "Qəzəb", "Qanlı sənələr", "İnqa", "Yanğın", "Sevil", "Küləkli şəhər", "Kaponan", "Dönüş" və digər pyeslərə musiqi tərtibatı verdi.

Yaradıcılığının ən məhsuldar dövrü 1928-1931-ci illər oldu. Həmin illərdə vokal, mahnı, romans, fortepiano, ansambl əsərlərinin böyük hissəsini, eləcə də "Ölkəm", "Sual", "Seyran", "Sərhədçilər" romanslarını yazdı.

Asəf Zeynallı hələ konservatoriyada təhsilini başa vurmazdan xeyli əvvəl orada müəllim kimi işə götürüldü. Musiqi-nəzəri fənlərdən dərs dedi. Tələbələri - Qara Qarayev, Cövdət Hacıyev, Tofiq Quliyev, Zakir Bağırov sonralar Azərbaycanın görkəmli bəstəkarları kimi tanındılar...

1931-ci ildə Asəf Zeynallı klassik və xalq musiqimizi təbliğ etmək, musiqi sahəsindəki yeniliklərlə tanış olmaq, dünyagörüşünü genişləndirmək məqsədilə ilk dəfə Leninqrada (indiki Sankt-Peterburq şəhəri) getdi.

Həmin il Azərbaycan Dövlət Konservatoriyasının kompozisiya nəzəriyyəsi sinfini müvəffəqiyyətlə başa vurdu. Artıq tanınmış bəstəkar idi. İndi bizə onu görkəmli bəstəkar kimi tanıdan, musiqi xəzinəmizin incilərinə çevrilən əsərlərinin əksəriyyətini elə tələbə ikən yazmışdı. Konservatoriyanı bitirdikdən sonra böyük coşgu ilə fəaliyyətini davam etdirir, yeni əsərlər üzərində çalışırdı. Hələ tələbəlik illərindən başladığı pedaqoji fəaliyyətini də davam etdirirdi. O həm də Azərbaycan Proletar Musiqiçilər Assosiasiyasının sədri, konservatoriyada yaradıcı sektorun təşkilatçısı və sədri kimi ictimai iş apardı.

"Fraqmentlər" süitasını yazmağa başladı. 7 hissədən ibarət olan süita Tənqid Təbliğ Teatrının on illik yubileyi günü musiqisevərlərə təqdim edildi.

### Yarımçıq qalan arzular...

Yorulmaq bilmədən yazıb-yaradırdı. Həyat onun üçün bahar ətrində, təravətindəydi. Arzuları sonsuz, enerjisi tükənməz idi. Bir də özü kimi musiqiçi olan bir gözələ aşiq idi. Sevirdi, sevilirdi...

Azərbaycan incəsənətinin təbliği üçün 1931-ci ilin payızında ikinci dəfə Leninqrada yollandı. O zaman Leninqradda təhsil alan keçmiş tələbə yoldaşı maestro Niyazinin köməyi ilə Leninqrad Filarmoniyasında Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət konsert təşkil etdi.

Geri döndükdən sonra "Bakı" adlı simfoniyanın girişini, mövzunun əsas və ikinci dərəcəli eskizlərini yazdı, işin tam planını qurdu. Amma gənc yaşında onu həyatdan, arzularından, Azərbaycan musiqi dünyasından alan ölüm bəstəkara bu əsərini tamamlamağa macal vermədi. Üzeyir Hacıbəyli yetirməsinin yarımçıq qalan arzusu barədə kədərlə yazırdı: "Asəf özünə qapanıb işləmirdi, başqaları ilə özünün kompozisiyası haqqında fikir mübadilələri edir, hər cür musiqi mövzularında həvəslə söhbət aparırdı. Məşum xəstəlikdən qabaq mənimlə söhbətində Asəf deyirdi ki, onun başı xalq musiqisinin müxtəlif sahələri üzərində muşahidələrdən alınmış ən qəribə səslərlə doludur. Bütün bunları o, bədii cəhətdən işləyib fikirləşdiyi simfoniyasında verməyə hazırlaşırdı".

Asəf Zeynallı bütün qəlbilə xalqına bağlı idi. Bunu onun əsərlərindən də görmək olar. O, Azərbaycan xalq musiqisini, xalq çalğı alətlərimizi böyük məhəbbətlə təbliğ edir, qorumağa çalışırdı. Hələ konservatoriyada oxuduğu vaxt yazdığı "Tarın müdafiəsinə" adlı məqaləsində o, "geriliyin qalığıdır" deyib tarı məhv etmək istəyənlərə etirazını bildirir, tarı müdafiə edirdi. Gənc bəstəkar yazırdı: "Tar öz konstruksiyasına görə yeganə alətdir ki, xalq yaradıcılığı və muğamların mahiyyətini dəqiq çatdıra bilir. Buna görə də tarı ləğv etməklə biz təkcə xalq musiqisi haqqında aydın təsəvvür almaq imkanından məhrum olmuruq, həm də xalq yaradıcılığı təfəkkürünün texnikası, ola bilər, bu təfəkkürün forma və məhsuluna da ciddi təsir göstəririk. Bizim təbiətən xalqın özünə məxsus olanı müsadirə etmək hüququmuz yoxdur".

O, Azərbaycan xalq musiqisinin, mahnı və rəqslərinin vurğunu idi. Hələ konservatoriyada oxuduğu illərdə xalq mahnı intonasiyalarına əsaslanaraq xor ilə orkestr üçün "Şikəstə", fortepiano üçün "Çahargah", skripka və fortepiano üçün "Muğamsayağı", iki violençel və fortepiano üçün "Qoyunlar" əsərlərini yazdı. 70-ə yaxın xalq mahnısını nota köçürdü. Onun fəaliyyətinin əsas istiqamətlərindən biri Azərbaycan xalq mahnılarının toplanması və işlənməsi idi. 1932-ci ilin yayında Azərbaycan Dövlət Konservatoriyası yanında elmi-tədqiqat kabinetinin tapşırığı ilə xalq mahnılarını toplamaq məqsədilə Qarabağa ekspedisiyaya gənc bəstəkar Asəf Zeynallı məşhur müğənni Bülbüllə birlikdə getdi. Xalq mahnısı və melodiyası topladılar. Asəf Zeynallı özü 50-yədək xalq mahnı nümunəsi əldə etdi. Simfoniyasında onlardan istifadə etməyi planlaşdırmışdı. Ancaq ekspedisiyanın sonu faciəylə bitdi. Asəf Zeynallı yolda yatalaq xəstəliyinə tutuldu. Bakıya amansız xəstəliklə dönən gənc bəstəkarın dərdinə həkimlər çarə tapa bilmədilər. Asəf Zeynallı 1932-ci il oktyabrın 27-də dünyadan köçdü.

Onun ömrünün və yaradıcılığının çiçəklənən vaxtında vəfat etməsi xəbəri Azərbaycanın ovaxtkı musiqi mühitində böyük kədər doğurdu. Üzeyir Hacıbəyli təəssüflə yazırdı: "Asəfin əsərlərinə nəzər saldıqda aydın olur ki, gələcəkdə o, olduqca böyük, orijinal və dərin düşüncəli bir bəstəkar ola bilərdi".

Bu acı xəbərlə dərdlənənlər yalnız iyirmi üç yaşlı bir gəncin vaxtsız həyatdan getməsinə yanmırdılar. Həm də Azərbaycan musiqisinə Asəf Zeynallı ürəyi, Asəf Zeynallı ruhu, düşüncəsiylə yazılmayacaq neçə-neçə ölməz əsərə yas tuturdular.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

## *Müdafiə Nazirliyi:* "Düşmən atəşkəs rejimini pozmaqda davam edir"



Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan və İcevan rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Şıxlar, Mərzili, Füzuli rayonunun Qorqan kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.


## "BANK RESPUBLİKA" ASC SƏHMDARLARININ NƏZƏRİNƏ!

**"Bank Respublika" ASC səhmdarlarının növbəti ümumi yığıncağı 22 may 2019-cu il saat 11:00-da, Bakı şəhəri, Xaqani küçəsi, 21 ünvanında yerləşən bankın baş ofisində keçiriləcək.**

**Gündəlikdəki məsələlər:**

1. İclasın sədrinin və katibinin təyin edilməsi.
2. İclasın gündəliyinin təsdiq edilməsi.
3. 2018-ci il üçün illik maliyyə hesabatı haqqında.
4. 2018-ci il üçün kənar audit yoxlamasının nəticələri haqqında.
5. 2018-ci ilin nəticələrinə görə mənfəətin bölüşdürülməsi haqqında.


## Özbəkistanın "Sevimli" televiziya kanalında Heydər Əliyev Mərkəzi haqqında veriliş yayımlanıb

Özbəkistanın "Sevimli" televiziya kanalının "Zamon" proqramında Heydər Əliyev Mərkəzi haqqında veriliş yayımlanıb.

AZƏRTAC xəbər verir ki, bu yaxınlarda Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə bir qrup özbək jurnalistin Azərbaycana mediaturu olub və videomaterial da bu səfər çərçivəsində hazırlanıb.

Proqramın müxbiri Dilnoza Saidova Heydər Əliyev Mərkəzi haqqında ətraflı məlumat verib. Bildirilib ki, Bakının simvollarından biri olan bu gözəl binanın layihəsini 2007-ci ildə məşhur memar, mərhum Zaha Hadid hazırlayıb.

Dünyanın nadir memarlıq abidələrindən biri sayılan bu binanın 2012-ci ildə təntənəli açılış mərasimi olub. Binada Heydər Əliyev muzeyi, sərgi salonları, beynəlxalq dialoq mərkəzi, iri konqres salonu var.

"Azərbaycan inciləri" sərgi salonunda ölkənin tarixini və mədəniyyətini əks etdirən müxtəlif eksponatlar nümayiş etdirilir. Burada Azərbaycan xalq çalğı alətləri ekspozisiyası diqqəti cəlb edir. "Mini Azərbaycan" sərgi salonunda 45 tarixi və memarlıq binasının maketləri var.

Birinci mərtəbədə böyük siyasi xadim Heydər Əliyevin vaxtilə istifadə etdiyi xidməti avtomobillər nümayiş etdirilir.

Mərkəzdəki retro avtomobillər də buraya gələnlərin diqqətini cəlb edir. Burada Almaniya, ABŞ, İtaliya, Fransa, Böyük Britaniya və digər ölkələrdə istehsal olunmuş klassik avtomobilləri görmək mümkündür.

## Beynəlxalq aləm

### Maltanın yeni prezidenti seçildi



Maltanın sabiq xarici işlər naziri Corc Vella ölkənin yeni prezidenti seçilmişdir. O, paytaxt Valettada parlamentin xüsusi iclasında dövlət başçısı kimi and içmişdir. Bu barədə "Malta Today" telekanalı xəbər verir.

Məlumata görə, Vella varidatın ədalətli bölüşdürülməsinə, ölkə vətəndaşlarının, miqrantların və əcnəbi işçilərin həyat səviyyəsinin yüksəldilməsinə tərəfdardır.

Bundan əvvəl Maltanın Baş naziri Cozef Muskat prezident vəzifəsinə Vellanın namizədliyini irəli sürmüşdü. Bu qərarı ölkə parlamenti dəstəkləmişdi.

Corc Vella prezident vəzifəsində Mari-Luiza Koleyro Prekini əvəzləmişdir.

Maltada prezident parlament tərəfindən beş il müddətinə seçilir.

### "Boeing"in qəzaya uğramasına MCAS-nın nasazlığı səbəb olub



"Boeing 737 Max 8" sərnişin təyyarəsinin qəzaya uğramasında Manevr Xarakteristikalarının Yaxşılaşdırması Sistemində (MCAS) nasazlıq rol oynamışdır. Bu barədə Efiopiyada "Ethiopian Airlines" aviaşirkətinin "Boeing 737 Max 8" təyyarəsinin qəzası barədə ilkin hesabatı şərh edərkən "Boeing"in baş direktoru Dennis Melenberq bildirmişdir.

Melenberq əlavə etmişdir ki, hadisənin bütün detalları təhqiqatın yekunlarına dair hesabatlarda dövlət orqanları tərəfindən açıqlanacaq.

Xatırladaq ki, ötən ayın 10-da Efiopiyada baş vermiş aviasiya qəzasında 157 nəfər - 35 ölkənin vətəndaşları həlak olmuşdur. Əddis-Əbəbə-Nayrobi reysi həyata keçirən "Boeing 737 Max 8" Efiopiya paytaxtından təxminən 60 kilometr cənub-qərbdə yerə çırpılmışdır.

Ötən il oktyabrın 29-da həmin modeldən olan "Boeing"in İndoneziyada qəzaya uğraması nəticəsində 189 nəfər həlak olmuşdur.

### Venesuelada böhran 1,1 milyon uşağa mənfi təsir göstərəcək



Venesuelada böhrandan zərər çəkən və humanitar yardıma ehtiyacı olan uşaqların sayı 1,1 milyona çata bilər. Bu barədə BMT-nin Uşaq Fondu (UNİCEF) məlumat vermişdir.

Məlumatda deyilir ki, Venesuelada mənfi təsirə məruz qalan uşaqların sayı iki dəfə artacaq. 1,1 milyon uşaq, o cümlədən qonşu ölkələrə qaçmış uşaqlar müdafiə və yardıma ehtiyac duyacaq.

UNİCEF hesab edir ki, Braziliya, Kolumbiya, Ekvador və Qayanada məskunlaşmış 4,9 milyon venesuelalının da humanitar yadıma ehtiyacı olacaq.

Fond region ölkələrini venesuelalı uşaqlara, məcburi köçkünlərə və qaçqınlara lazımi yardım göstərməyə çağırmışdır.

BMT-nin məlumatına görə, 7 milyon nəfərin, yaxud Venesuela əhalisinin təxminən 25 faizinin humanitar yardıma ehtiyacı var.

### Avropa Parlamenti Brexitdən sonra vizasız rejimə icazə verdi



Avropa Parlamenti (AP) Londonun Avropa İttifaqının (Aİ) tərkibindən çıxmasından (Brexit) sonra Böyük Britaniya və Aİ vətəndaşlarına vizasız səfərlər etməyə imkan verən qərarı təsdiqləmişdir. Vizasız səfərlər məsələsi AP-ın Brüsseldə keçirilmiş plenar iclasında müzakirə olunmuşdur. Vizasız rejimin lehinə 502, əleyhinə 81 deputat səs vermişdir.

Qanun layihəsinə əsasən, Brexitdən sonra Böyük Britaniya və Aİ vətəndaşları 180 gün ərzində 90 gün müddətinə vizasız səfər edə biləcəklər.

Aİ Şurası tərəfindən qəbul olunacaq sənəd aprelin 12-dək qurumun rəsmi jurnalında dərc ediləcək.

### "Taliban" Bala Murqab qəzasına hücum etdi



Əfqanıstanın Badgis əyalətindəki Bala Murqab qəzası "Taliban" silahlılarının hücumuna məruz qalmışdır. Nəticədə onlarca yerli mühafizəçi həlak olmuşdur.

Yerli bələdiyyənin rəisi Abdulvaris Şirzad "Anadolu" agentliyinə bildirmişdir ki, taliblər qəzanın mərkəzinə dörd tərəfdən hücum etmişlər. Hücum zamanı 30 yerli mühafizəçi həlak olmuş, bir çoxları yaralanmış, yaxud əsir götürülmüşdür.

Şirzad qəzada bir çox kəndlərin "Taliban" hərəkatının nəzarətinə keçdiyini bildirmişdir.

Badgis qubernatorluğundan verilən məlumata görə, hücumdan sonra baş vermiş toqquşmada xeyli talib öldürülmüşdür.

Öz növbəsində "Taliban"ın rəsmi nümayəndəsi Zəbihulla Mücahid bildirmişdir ki, hücum nəticəsində ekstremistlər beş polis məntəqəsini ələ keçirmişlər.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov və institutun kollektivi iş yoldaşları Səidə Kazımovaya anası

**SƏKİNƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov və institutun kollektivi iş yoldaşları İradə Məmmədovaya əzizi

**İBRAHİM MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahova əzizi

**ƏLİ PAŞAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Mətanət A" Şirkətlər Qrupunun Müşahidə Şurasının sədri Elxan Bəşirov və şirkətin kollektivi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahova əzizi

**ƏLİ PAŞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Dövlət Universitetinin Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının kollektivi İbrahim Zeynalova qardaşı

**DUMAN ZEYNALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9107
Sifariş 1071
Qiyməti 40 qəpik